www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 21 iyun 2023-cü il Çərşənbə № 107 (8243) Qiyməti 60 qəpik

**Xəbər**

## Azərbaycanda həkimlərə resept qadağası

yazısı səh.13-də

**Gündəm**

### Azərbaycana qarşı Ukrayna planı: “Nə qədər ki, Əliyev prezidentdir...”



Rusiya mediasından ilginc iddialar

yazısı səh.5-də

### Müsəlman dünyasının tək nüvə dövləti ilə müttəfiqlik

yazısı səh.6-də

### Laçın yoluna Avropadan “hücum”: AŞ PA gündəliyə saldı, Cenevrədə isə...

yazısı səh.8-də

### Doqquz saatlıq müzakirənin yekunu - İrəvan o sənədi imzalayacaqmı?

yazısı səh.10-da

### Rusiya XİN-in Xankəndi iddialarının pərdəarxası

yazısı səh.4-də

### “Qozbel Paris”in Bakıya qarşı artan qərəzi

yazısı səh.11-də

### Erməni uşaqlar silahlandırılır

yazısı səh.4-də

### İcbari tibbi sığorta zərfinə salınmayan xəstəliklər - problem həll olunacaqmı?

yazısı səh.13-də

### Dünyada neftə yatırımlar azalır: nə baş verəcək?

yazısı səh.15-də

### Kütləvi məzarlıqlar və beynəlxalq təşkilatların kor olan gözü...

yazısı səh.14-də

### “Tezliklə Qarabağ hərbsizləşəcək”- politoloq

yazısı səh.5-də

# ZƏNGƏZUR DƏHLİZİ UĞRUNDA DONBAS KİMİ MÜBARİZƏ

Rusiya özü dəhlizə nəzarət etmək iddiasındadır, lakin ABŞ, İran və Fransanın mövqeyi fərqlidir - Qərb beynəlxalq qaydalar əsasında burada keçid-gömrük nəzarətinin təşkilini istəyir

yazısı səh.9-da




# Quru sərhədlərin açılacağı xəbəri bu dəfə gerçəyə oxşayır

Ehtimal var ki, bu həftə Operativ Qərargah ləğv ediləcək və quru sərhədlərin açılması ilə də bağlı qərar veriləcək

yazısı səh.12-də



### Əli Kərimli diktaturası - AXCP-dən istefanın şok səbəbi

yazısı səh.10-da



*Rəşad Məcid:*

### “Arzu edirəm ki, üçüncü bina jurnalistlərin xeyrinə həll olunsun”

yazısı səh.3-də



### Paşinyanın Putinə 60 zənginin sensasion təfərrüatları

yazısı səh.7-də




# Elektrik enerjisinin qiyməti artırılır?

**Son günlər yayılan məlumata görə, cari ilin sonuna qədər elektrik enerjisi haqları yenidən qaldırılacaq. Hətta "Azərişıq" Açıq Səhmdar Səhmdar Cəmiyyəti tərəfindən bununla bağlı təkliflərin hazırlanaraq Tarif Şurasına göndərildiyi də bildirilir.**

Bu məlumat əhali arasında ciddi narahatlığa səbəb olub.

Bizim.media əhalinin narahatlığını nəzərə alaraq, "Azərişıq" ASC-yə və Tarif (qiymət) Şurasına sorğu göndərib.

ASC-nin mətbuat xidmətinin rəhbəri Vaqif Aydınoğlu açıqlamasında qiymət artımı ilə bağlı səlahiyyətlərin onlara aid olmadığını bildirib.

İqtisadiyyat Nazirliyinin mətbuat xidmətinin rəhbəri Leyla Zamanova isə elektrik enerjisi tariflərinin yenidən tənzimlənməsi ilə bağlı müvafiq subyektdən müraciət daxil olmadığını qeyd edib.

Onun sözlərinə görə, qeyd edilən məsələ hazırda Tarif (qiymət) Şurasında müzakirə olunmur.

# Yoxlamadan keçə bilməyən həkimlərin əlavələri kəsiləcək

**Həkim və mütəxəssislərin fəaliyyətinin qiymətləndirilməsi məqsədilə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədrinin əmri ilə monitorinq komissiyası yaradılması nəzərdə tutulub.**

Bunu TƏBİB İdarə Heyətinin sədri Vüqar Qurbanov deyib. O bildirib ki, komissiya tərəfindən bir həkim mütəxəssis 6 aylıq əsaslarla monitorinqdən keçiriləcək: "Monitorinqdən müvəffəqiyyətlə keçən həkim mütəxəssislərə həvəsləndirici və əlavələrin ödənilməsi daha bir il uzadılacaq. Monitorinqdən keçə bilməyən həkimlərin həvəsləndirici və əlavələri kəsiləcək".

# Ölkəmizdə 3350 nəfər minaların qurbanı olub

**Azərbaycanda son 30 ildə təxminən 3350 nəfər minaların qurbanı olub.**

Bu barədə Beynəlxalq Qızıl Xaç Komitəsi məlumat yayıb.

Bildirilib ki, BQXK Azərbaycan Qızıl Aypara Cəmiyyəti (AzQAC), ANAMA və Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili - Ombudsman Aparatı ilə birlikdə mina qurbanlarına dəstəyin artırılmasına və beynəlxalq mina təmizləmə standartlarının təşviqinə diqqət yetirir.

# Azyaşlıya qarşı qeyri-etik hərəkətlər edən tutuldu

**Bakıda azyaşlıya qarşı qeyri-etik hərəkətlər etməkdə şübhəli bilinən şəxs saxlanılıb.**

Bu barədə Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətindən məlumat verilib.

Bildirilib ki, paytaxtın Binəqədi rayonunda naməlum şəxsin azyaşlıya qarşı qeyri-etik hərəkətləri ilə bağlı sosial şəbəkələrdə yayılan görüntülər araşdırılıb.

Polis əməkdaşları tərəfindən keçirilən tədbirlərlə 1991-ci il təvəllüdlü Amid Nəbiyev saxlanılıb.

Araşdırma aparılır. "Onun əməlindən zərərçəkən başqa şəxslər varsa, polisə məlumat verməleri tövsiyə olunur", - məlumatda qeyd olunub.

# Şəkər tozu qıtlığına səbəb nədir?



**Son günlər Azərbaycanda şəkər tozu qıtlığı yaşanır. Belə ki, paytaxtla yanaşı, regionlarda fəaliyyət göstərən əksər market və bazarlarda şəkər tozunun olmadığı bildirilir. Buna səbəb kimi Ukraynadan şəkər idxalının dayandırılması göstərilir. Vətəndaşların fikrincə, sahibkarlar əllərində olan məhsulu baha qiymətə satmaq üçün gizlədiblər. Bəzi iddialara görə isə hazırkı vəziyyət lazımi tədarükün görülməməsi ilə əlaqədardır.**

**İqtisadçı ekspert Natiq Cəfərli** "Yeni Müsavat"a bildirdi ki, şəkər qıtlığına Ukrayna-Rusiya müharibəsinin təsiri var. Ekspert qeyd etdi ki, müharibədən öncəki dövrdə Ukraynadan böyük həcmdə şəkər tozu idxal edilirdi: "Bizdə dükanlarda Azərbaycan şirkətləri adı altında satışa çıxarılan şəkər tozu əslində Ukraynadan alınıb burada qablaşdırılan şəkər tozu idi. Yerli istehsalımız isə həddən artıq azdır. Bu da bazarda idxaldan asılılığı artıran səbəbdir. İdxal azalan kimi bazarda gərginlik yaranır. Bir müddət Rusiyadan idxal həyata keçirildi, lakin daxili bazarı qorumaq üçün rüsumları artırıb. Ona görə də daxili bazarda gərginlik var. Eyni zamanda? mövsümi səbəb də var, qışa tədarük görüldüyü dövrdür. Ola bilər qıtlığın səbəblərindən biri budur. Həmçinin topdan satışla məşğul olan şirkətlər bunu bəhanə edərək qiyməti növbəti dəfə artırmaq niyyətində ola bilərlər. Düşünürəm ki, 15-20 faizlik artım mümkündür".

**İqtisadçı ekspert Eyyub Kərimli Trend.az-a bildirib ki, şəkər tozunun qıtlığı mövsümü amillərlə bağlıdır. Ekspert bildirib ki, bu ilin beş ayında ölkəmiz şəkər tozunun ixracatında artırıb.**

"Bu da onu deməyə əsas verir ki, ölkəmizdə şəkər tozunun təminatında problem yoxdur. Ümumi götürsək, dünyada şəkər tozunun qiymətində bahalaşma müşahidə olunur. Belə ki, şəkər qamışı və tozunun böyük istehsalçıları olan Hindistan, Misir ixraca müəyyən məhdudiyyətlər tətbiq edib. Bunun əksinə olaraq böyük şəkər tozu ixracatçısı Braziliya ixracatı artırıb. Yaxın aylarda şəkər tozunun qiymətinin stabilləşməsinin şahidi olacayıq", - deyə o qeyd edib.

**Deputat Azər Badamov isə "Yeni Müsavat"a deyib ki, şəkərin qiymətinin artması dünya bazarında xammalın qiymətinin artması ilə əlaqədardır:** "Hesab edirəm ki, hökumət bahalaşmanın insanların sosial vəziyyətinə təsirlərini azaltmaq üçün müəyyən tədbirləri davam etdirməlidir".

❑ **Nìgar HƏSƏNLİ, "Yenì Müsavat"**

# "28 May" stansiyasında eskalatorlar işləməyəcək

**"Bakı Metropoliteni" QSC-nin "28 May" stansiyasının II vestibülünün 2009-cu il dekabrın 30-dan istismarda olan eskalatorlarından birinin ilk dəfə əsaslı təmirinə başlanılıb.**

Bu barədə qurumdan bildirilib.

Məlumata görə, 150 min km-dən artıq qaçış məsafəsi olan "ET-3 M" tipli 3 saylı eskalatorun təmiri zamanı lazım olan materiallar, tərtibatlar, ehtiyat hissələri və alətlər əvvəlcədən tədarük edilib. Bununla yanaşı, stansiya və digər işçilər müvafiq təlimat keçiblər, təhlükəsizlik tədbirləri görülüb.

Hazırda eskalator pillələri demontaj olunur, sürahi elementləri sökülür. Bu işlər başa çatdıqdan sonra dartı zənciri çıxarılaraq əyləc sisteminin elementləri, reduktor, mühərrik sökülərək təftiş olunacaq.

Demontaj işləri tam başa çatdıqdan sonra eskalatorda fermaların səviyyəsi və digər parametrlərin ölçülməsi üzrə işlər aparılacaq. Hissələrin və qovşaqların təftişi, yoxlama və təmirindən sonra isə quraşdırma işlərinə başlanılacaq.

İşlər sentyabrın 15-nə kimi davam edəcək. Sonrakı dövrdə qaçış məsafəsindən asılı olaraq, digər eskalatorların ilk əsaslı təmiri də planlaşdırılacaq.



# Rusiyaya nifrət edən ölkələr hansılardır?

**Anti-Rusiya düşüncəsinin geniş yayıldığı ölkələr sırasında Ermənistan ön sırada yer alır.**

Modern.az xəbər verir ki, bu barədə "Financial Times" nəşri məlumat yayıb.

Bildirilib ki, Rusiyaya ən çox ukraynalılar nifrət edir. Ukrayna vətəndaşları müharibə səbəbindən Rusiyanı düşmən ölkə kimi qəbul edirlər.

Qeyd edək ki, siyahıda Ermənistan da var. Lakin Azərbaycan sözügedən siyahıda yer almayıb.

Rusiyaya nifrət edən ölkələrin siyahısını təqdim edirik:

**1.** Ukrayna
**2.**Litva
**3.**Gürcüstan
**4.** Estoniya
**5.** Latviya
**6.** Ermənistan
**7.** Moldova
**8.** Qazaxıstan
**9.** Qızğızıstan
**10.** Özbəkistan

# Fransız futbolçu erməni cəbhəsində



**Fransız futbolçu Olivye Jiru Azərbaycan torpaqlarında qurulmuş işğalçı rejimə maddi yardım göstərib. Novator.az-ın məlumatına görə, 2022-ci ilin dünya çempionatının dörddə bir finalında geyindiyi köynəyi hərracda 35 min avroya satılan futbolçu vəsaiti işğalçı rejim üçün pul toplayan "Ermənistan üçün ümid" təşkilatının hesabına köçürüb.**

1986-cı il təvəllüdlü Olivye Jiru ölkəsinin "Qrenobl", "İstr", "Tur", "Monpelye", İngiltərənin "Arsenal", "Çelsi" komandalarında çıxış edib, hazırda İtaliyanın "Milan" komandasında oynayır.

Fransa milli komandasının formasını geyinən hücumçu 2018-ci ilin dünya çempionudur.

# Bu gün ölkəmizdə yay fəsli başlayır



**2023-cü ildə yay fəsli Azərbaycana 21 iyun saat 18:57-də daxil olacaq. Şamaxı Astrofizika Rəsədxanasından verilən məlumata görə, həmin gün Şimal yarımkürəsində ən uzun Gündüz və ən qısa Gecə, Cənub yarımkürəsində isə əksinə olaraq ən qısa gündüz və ən uzun gecə olur. Sonra gündüzün uzunluğu azalmağa başlayır və Günəş zenitdə getdikcə cənuba doğru yerini dəyişir.**

Yay günəş duruşu günü Yerin fırlanma oxu Günəş istiqaməti ilə ən kiçik bucaq əmələ gətirir və Günəş həmin gün günorta vaxtı üfüqdən maksimum hündürlüyə (73?.1) qalxır.

Qeyd edək ki, Bakı üçün 21 iyunda gündüzün uzunluğu 15 saat 3 dəq 24 san, gecənin uzunluğu isə 8 saat 56 dəq 36 san olacaq.

# Avtobuslarda bank kartları ilə ödəniş mümkün olacaq




**Avtobuslarda bank kartları vasitəsilə ödəniş etmək mümkün olacaq. Bunu "K group" şirkətinin direktoru Orxan Bayramov avtobuslarda nağdsız ödənişlər üçün yeni mobil tətbiqin təqdimatı ilə bağlı keçirilən brifinqdə bildirib. "Bu ilin sonuna kimi "Bakıkart" aktiv olduğu ərazilərdə bu funksiya aktiv fəaliyyət göstərəcək", - deyə Orxan Bayramov əlavə edib.**

YENİ MÜSAVAT
N 107 (8243) 21 iyun 2023

# Jurnalistin MİDA-dan ev almaq şansı və üçüncü bina... - kim nə deyir?

## Rəşad Məcid: "Arzu edirəm ki, üçüncü bina ətrafında olan məsələ jurnalistlərin xeyrinə həll olunsun"

## Aydın Quliyev: "Jurnalistlərin güzəştli ipoteka ilə mənzil almaq hüququ yaxşı haldır, amma... "

**Jurnalistlər də müəyyən şərtlərlə Mənzil İnşaatı Dövlət Agentliyindən (MİDA) ev ala biləcək. Bu barədə MİDA-nın yaydığı məlumata görə, qurumun sərəncamında olan mənzilləri güzəştlə əldə etmək hüququ olan vətəndaşların sırası genişləndirilib. Müvafiq dəyişikliklə, gənc ailə (gənc ailə - yaşı 35-dən çox olmayan şəxslərin nikaha daxil olmasından yaranan ailə, habelə himayəsində azı bir uşağı olan və yaşı 35-dən çox olmayan tək valideyndir) üzvü olan "ən azı 5 il jurnalist işləyən və Media Reyestrinə daxil edilmiş şəxslər" və yaşından və ailə vəziyyətindən asılı olmayaraq "ən azı 15 il jurnalist işləyən və Media Reyestrinə daxil edilmiş şəxslər" də güzəştlə mənzil əldə etmək hüququ olan vətəndaşların kateqoriyalarına əlavə edilib.**



Ölkə başçısının bu fərmanını icra etmək məqsədilə ötən müddət ərzində Mənzil İnşaatı Dövlət Agentliyi tərəfindən "Güzəştli mənzil" elektron sistemində zəruri dəyişiklik və təkmilləşdirmə işi aparılmış, həmin kateqoriyalara uyğun olan jurnalistlər tərəfindən təqdim edilməli sənədlər müəyyənləşdirilmişdir.

Həmin şəxslər 19.06.2023-cü il tarixindən etibarən Elektron İmza və ya Asan İmzadan istifadə edərək "Elektron hökumət" portalında (www.e-gov.az) yaradılmış "Güzəştli mənzil" sistemi vasitəsilə müraciət edə bilərlər.

Bununla belə, əksər media nümayəndələri jurnalistlərin bu şərtlərlə ev almasının çətin olduğunu deyərək, narazılıqlarını bildiriblər. Jurnalist Məhəmməd Qəriblinin bu barədə fikirlərini qısa şəkildə təqdim edirik:

"Hakimiyyətin daxilində olan hansısa qüvvə jurnalistlər üçün tikilən və tam hazır vəziyyətdə olan 3-cü binanı öz halal sahibləri olan media təmsilçilərinə vermək istəmir. Bunun üçün o hoqqa qalmadı ki, çıxarmasınlar.

MİDA adından bir məlumat yayılıb. Bəzi saytlar da bu məlumatı elə başlıqlarla tirajlayıblar ki, sanki bununla da ehtiyacı olan jurnalistlərin mənzil məsələsi öz həllini tapmış olacaq. MİDA-nın jurnalistlərə təklif etdiyi güzəştli mənzillərlə bağlı şərtlərini oxudum.

Düzünü deyim ki, xəbəri 5 dəfə oxuyandan sonra nəsə anlaya bildim. Çox az sayda jurnalist tapılar ki, həmin kriteriyalara uyğun gəlsin. Mən özümü ağır kriteriyalardan birinə uyğun saydım. Şərtlərin birində deyilir: "15 il jurnalist stajın və Media Reysterində qeydiyyatın" olmalıdır. Sevindim ki, sabahdan gedib sənədləri toplayım. Çünki həm stajım 15 ildən çoxdur, həm də Media Reysterində qeydiyyatım var.

Sonra aydın oldu ki, kriteriyalara cavab versən də, sənədləri toplasan da, bu hələ sənə ev vermək anlamına gəlmir. Səni hələ qarşıda MİDA-nın təşkil etdiyi mənzillərlə bağlı oyunda iştirak gözləyir. Bilirsiniz ki, orada da sistem açılmağı ilə evlərin satılmağı bir olur.

Sizcə, sənədləri qaydasında olan Məhəmmədəli Qəribli kimi zavallı bir jurnalist 7-8 saniyəyə oradan ev uda bilər?"

**Jurnalist Araşdırmaları Mərkəzinin (JAM) sədri Seymur Verdizadə də jurnalistlər üçün tikilən binanın ehtiyacı olan jurnalistlərə verilməsini təklif edib. Jurnalist qeyd edib ki, jurnalistlər üçün tikilmiş üçüncü binanın təyinatının dəyişdirilməsi ilə bağlı təklifin reallaşması bu istiqamətdə fəaliyyət göstərən dövlət qurumlarının əməkdaşları üçün yeni problemlər yarada bilər**: "Bakıda mərkəzə yaxın ərazilərdə mənzil sahibi olmaq istəyən çoxlu sayda şəhid və qazi ailəsi var. Həmçinin rayonlarda yaşayıb paytaxtda ev-eşik sahibi olmaq istəyən həssas təbəqəyə aid insanlar da az deyil. Cəmi 255 mənzil onların arasında necə bölünəcək?"

**Seymur Verdizadə Bakının Səbayel rayonunda jurnalistlər üçün tikilmiş üçüncü binanın ətrafında yaranmış qeyri-müəyyənliyin həm mətbuat nümayəndələri, həm də şəhid və qazi ailələri arasında narahatlığa səbəb olduğunu bildirib**: "Bu günə kimi bir neçə şəhid və qazi ailəsinin üzvü jurnalistlər üçün tikilmiş üçüncü binadan mənzil almaq üçün mənə müraciət edib. Onlar mətbuatdan oxuyublar ki, Bayılda media nümayəndələri üçün tikilmiş həmin bina şəhid və qazi ailələrinə veriləcək. Bu məsələ reallaşsa, iddialıların sayı yüzlərlə olacaq. Hesab edirəm ki, şəhid və qazi ailələrinin sosial-məişət şəraitinin kompleks tədbirlərlə yaxşılaşdırıldığı bir vaxtda bu işi həyata keçirən dövlət qurumlarının nümayəndələrinə əlavə problem yaratmağa ehtiyac yoxdur".

S.Verdizadə deyib ki, əlavə söz-söhbətə rəvac verməmək üçün 22 iyul Milli Mətbuat Günü ərəfəsində Bayılda jurnalistlər üçün tikilmiş üçüncü binanın taleyinə aydınlıq gətirilməli, hazır mənzillər ehtiyacı olan jurnalistlərə paylanılmalıdır.

**Mövzu ilə bağlı Mətbuat Şurasının (MŞ) sədri Rəşad Məcid "Yeni Müsavat"a danışıb. MŞ sədri qeyd edib ki, MİDA-dan ev almaq məsələsi təkcə jurnalistlər üçün deyil, ümumiyyətlə, bütün vətəndaşlar üçün çətin prosesdir**: "Bunun üçün həddindən artıq kreativ olmaq, proseslərə lazımı qaydada əməl etmək lazımdır. Xatırlayıram ki, MŞ-nin qurultayı ərəfəsində Technote Media Şirkətinin təsisçisi və rəhbəri, həmçinin MŞ-nin üzvü olan Fərid Pərdəşünas MİDA-dan ev almağı bacarmışdı. Bu mənada müasir texnologiyanı bilən gənclərimiz daha üstünlük qazana bilirlər. Hər halda, jurnalistlərin müəyyən şərtlərlə MİDA-dan ev ala bilməsi müsbət haldır. Hesab edirəm ki, jurnalistlərimiz bu sahədə təcrübəsi olan həmkarlarının bilik və bacarıqlarından istifadə etməlidirlər. Çalışmaq lazımdır, onsuz da bütün işlər əzm və fədakarlıq tələb edir".

**Rəşad Məcid jurnalistlər üçün tikilmiş üçüncü binanın ehtiyacı olan jurnalistlərə verilməsi ilə bağlı səslənən fikirlərə də münasibət bildirib**: "Üçüncü bina ilə bağlı hazırda müxtəlif fikirlər səslənir, mən də bu məsələni izləyirəm. Hələ birinci binanın açılışında çıxış edərək bildirmişdim ki, bu, Azərbaycan Prezidenti tərəfindən edilmiş böyük savab işdir. Bu gün də həmin binada yaşayan çox sayda jurnalistlərimiz var ki, zamanında Prezidentimizin bu savab addımı olmasaydı, heç bir zaman Bakı şəhərində ev ala bilməzdilər.

Həqiqətən də bir qisim peşəkar jurnalistlər var ki, indiki şəraitdə ev alması vacib məsələdir. Mən də arzu edirəm ki, üçüncü bina ətrafında olan məsələ jurnalistlərin xeyrinə həll olunsun".

**"Bakı-Xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev isə qeyd etdi**: "İlk növbədə qeyd edim ki, jurnalistlərin güzəştli ipoteka ilə mənzil almaq hüququnun real şəkil alması və icrasına başlanılması yaxşı haldır, amma bəzən elə şərtlərə rast gəlinir ki, jurnalistlərin böyük əksəriyyətinin bu imkandan istifadə edə bilməsi çox şübhəli görünür. Məsələn, eşitmişəm ki, jurnalistin rəsmi əmək haqqının minimum 1000-1100 manat olması kimi bir şərt var. Halbuki redaktorlardan belə bu qədər rəsmi əmək haqqı almayanlar var. Hesab edirəm ki, minimum əmək haqqı həqiqətən də bu cür müəyyənləşibsə, yaxşı hal deyil".

**❑ Xalidə GƏRAY, "Yeni Müsavat"**

# Medianın büdcə payından nə qədər kəsilib?



**2023-cü ilin dövlət büdcəsinin yenilənməsi media sahəsinə də təsir göstərir. Novator.az bildirir ki, Azərbaycan Dövlət İnformasiya Agentliyinə (AZƏRTAC) ayrılan vəsait 9,3 milyon manatdan 8,3 milyon manata, Medianın İnkişafı Agentliyinin payı 6,8 milyon manatdan 6,4 milyon manata enir.**

Büdcədə Audiovizual Şurası üçün 2,6 milyon manat vəsait nəzərdə tutulub.

Televiziya, radio və nəşriyyat istiqaməti üzrə 61 milyon 24,1 min manat xərc nəzərdə tutulur. Həmin vəsaitin 36,1 milyon manatı "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin, 21,6 milyon manatı İctimai Televiziya və Radio Yayımları Şirkətinindir.

"Azərbaycan" nəşriyyatına (dövlət sifarişlərinin yerinə yetirilməsi üçün) 2,3 milyon manat verilir.

"Mir" Dövlətlərarası Teleradio Şirkətinin Azərbaycan milli nümayəndəliyinə 655,1 min manat, Mədəniyyət Nazirliyinə 272,6 min manat, radio və televiziya redaksiyalarının saxlanması üçün 27,8 min manat ayrılır.

# Əhalinin borclanma səviyyəsi artıb

**Azərbaycanda əhalinin borclanma səviyyəsi artıb.**

Bu barədə Azərbaycan Mərkəzi Bankı məlumat verib. Belə ki, cari ilin ilk rübündə istehlak və ipoteka kreditlərinə tələb yüksəlib.

Tələbin artımının əsas drayverləri daşınmaz əmlak bazarı ilə bağlı gözləntilər, faiz dərəcələri və rəqəmsallaşma olub. Bununla yanaşı, əhalinin banklara borclanma səviyyəsinin 42 faizdən 54 faizə qədər artdığı da bildirilib.

# Vətəndaşların borclanma səviyyəsinin artmasının digər amilləri nədir?

**Mövzu ilə bağlı cebhe.info-ya açıqlama verən iqtisadçı-ekspert Eyyub Kərimli bildirib ki, bunun əsas səbəbi inflyasiyadır: "Çünki ölkədə inflyasiya gedir və qiymət artımı baş verib. Bizdə banklar krediti daha çox manatla verir, manatın dəyərində isə eniş müşahidə olunur.**

Xatırladım ki, ötən il 100 manata aldığımız hər hansısa məhsulu bu il 120-130 manata alırıq. Rəsmi göstəricilərə görə inflyasiya 14 faizdir, amma real inflyasiya göstəriciləri daha yüksəkdir. Bu da xidmətlərin, məhsulların və materialların qiymətinin artmasına səbəb olur.

Ona görə də insanlar hər hansı istehlak tələblərini ödəmək üçün daha çox vəsait istifadə etməyə məcbur qalırlar. Sözsüz ki, bu da götürülən kreditlərin məbləğinin artmasına səbəb olur. Hesab edirəm ki, əhalinin banklara borclanma səviyyəsinin artması bununla bağlıdır".

Ekspert əlavə edib ki, əhalinin sayındakı artım da sözügedən statistikadakı artıma təsir edən amillərdən biridir.

YENİ MÜSAVAT
N 107 (8243) 21 iyun 2023

# Rusiya XİN-in Xankəndi iddialarının pərdəarxası

## Ekspertin fikrincə, Bakı antiterror əməliyyatı keçirmək qərarı veribsə, rusların infotəxribatları qarşısını ala bilməyəcək, "Bakını buna sövq edən Vaşinqtondur" deyə bilmək üçün istinad nöqtələri yaradırlar

**Rusiya Xarici İşlər Nazirliyi ABŞ-ın Qarabağ ermənilərini təhdid etdiyini bildirir. Bu açıqlama hələ də gündəmdədir. Rəsmi Moskva Vaşinqtonun Xankəndi administrasiyası qarşısında şərt qoyduğunu açıqlamışdı: ya Azərbaycana tabe olmaq, ya da Bakı antiterror əməliyyatına başlayacaq.**

Rusiya XİN hesab edir ki, bu mövqe Qarabağdakı erməniləri güc tətbiqi ilə hədələməkdir. "Biz KİV-də ABŞ-ın öz vasitəçilik xidmətlərini indi də Bakı və Stepanakert (Xankəndi-red.) arasında dialoqda tətbiq etməyə çalışması ilə bağlı yayılan məlumatlardan narahatıq. O cümlədən güc tətbiq etməklə hədələmə yolu ilə" - sitatın sonu.

Daha sonra qeyd edilir ki, guya Vaşinqton ultimativ formada Qarabağ ermənilərinin nümayəndələrini üçüncü ölkədə Bakı nümayəndələri ilə görüşə getməyə məcbur edir. İmtina edildiyi təqdirdə, onlar Azərbaycan tərəfindən antiterror əməliyyatı keçirməklə hədələnirlər. O da iddia olunur ki, Amerikanın "sülhməramlı" təşəbbüsünə İrəvanda oturan və Nikol Paşinyanın göstərişlərini yerinə yetirən Qarabağın "xarici işlər naziri" Sergey Kazaryan lobbiçilik edir. Rusiya iddia edib ki, Amerika üçün lobbiçilik edən Kazaryan Vaşinqtonun mövqeyinə uyğun olaraq rəsmi Bakı ilə Qarabağ erməniləri arasında dialoqun tərəfdarıdır.

Rusiya XİN-in və Kremlin nəzarətindəki media strukturlarının Sergey Kazaryanı "xain" kimi göstərməsi ondan xəbər verir ki, Moskva Bakı ilə Xankəndi arasında təmasların və dialoqun əleyhinədir. XİN nümayəndəsi Mariya Zaxarova media məlumatlarından agah olduğunu bildirib və əlavə edib ki, faktlar təsdiqlənərsə, ABŞ izahat verməli olacaq. Rusiyanın bəyanatlarından çıxan nəticələrin biri budur ki, guya Azərbaycan bərabər əsasda Xankəndi ilə dialoq qurmağa hazır imiş və hələ bir vasitəçi də lazım imiş.



Bu da onu göstərir ki, Rusiya XİN məlum açıqlaması ilə əslində dünya ictimaiyyətinə guya Bakı ilə Xankəndi arasında birbaşa, bərabərtərəfli əsaslarda dialoqun qurulduğu barədə bir mesaj vermək istəyir. Bütün bunlarda məqsəd dünya ictimaiyyətinin diqqətini ona yönəltməkdir ki, guya Bakı ilə Xankəndinin bərabər əsaslarda dialoqa gedəcəyi anlaşması mövcuddur. ABŞ-ın belə bir niyyəti haqda Moskvanın yaydığı məlumatda əsas məqsəd nədir? Rusiya Xankəndi separatçılarına nəzarəti itirməkdən ehtiyat edir, yoxsa bölgəni itirməkdən? Xankəndidə Amerikanın "adamları" kimlər ola bilər?

**Polkovnik Üzeyir Cəfərovun "Yeni Müsavat"a bildirdiyinə görə, bu məsələnin maraqlı tarixçisi var:** "Prezident Laçında separatçılara bir sıra mesajlar verdi. Bunu da belə təqdim etdilər ki, ya danışıqlara gedirsiniz, ya da antiterror başlanacaq. Əgər belə davam edərsə, onsuz da Azərbaycan məcburiyyət qarşısında hansısa qərarlar qəbul edəcək. Bu da dövlət rəhbərliyinin səlahiyyətindədir. Amma maraqlıdır ki, "Ria Novosti" yazdı, Amerikadakı mənbələrə guya istinad etdi, sadəcə, Vaşinqton heç bir reaksiya bildirmədi. İndi Zaxarova və başqaları deyirlər ki, izahat verilməlidir. İzahatı isə baş nazirin müavini Overçuk verdi, bildirdi ki, baş verənlər nəqliyyat kommunikasiyaların açılmasına qarşıdır. Demək istəyir ki, biz buna imkan verməyəcəyik. Zaxarova oradan, Overçuk buradan danışır. Ona görə də yaxın günlərdə Qarabağda təxribatları davam etdirəcəklər".

**Hərbi ekspertin sözlərinə görə, artıq Naxçıvandan tutmuş rus hərbçilərin olduğu ərazilərə qədər atəş açırlar**: "Rusiya buna aydınlıq gətirməli idi ki, onların olduğu yerdən bizə atəş açılır. Yəni faktiki separatçıları oynadırlar. Paşinyan 44 günlük müharibə ilə bağlı ifadəsində də deyir ki, 60 dəfə Rusiya prezidentinə zəng edib. 44 gündə 60 dəfə zəngləşiblərsə, deməli, daha çox zəng edib. Rusiya separatçı ermənilərin Qarabağdan təmizlənməsinə qarşıdır. Separatçılar varsa, ruslara ehtiyac olur. Onlar getsələr, rus hərbi kontingentinə zərurət olmur".

**Siyasi şərhçi Asif Nərimanlının sözlərinə görə, Qarabağdakı separatçılar "Ria Novosti"nin "ABŞ Bakı ilə dialoq tələb edir, əks təqdirdə, antiterror əməliyyatı keçiriləcək" xəbərdarlığına dair iddiasına münasibət bildirib**: "Deyirlər ki, "mövcud şəraitdə münaqişənin dialoq yolu ilə həlli real deyil". Məlumatda iddia olunan "üçüncü ölkələrdə dialoq" da Azərbaycanın gündəliyinə daxil deyil. Separatçılar üçün iki dəfə Bakıda reinteqrasiyanı müzakirə etmək təklifi verilmişdi, artıq nə bu təklif, nə də dialoq gündəmdə deyil. Təslim olmaq tələbi var və yalnız bu halda amnistiya haqda müzakirə aparıla bilər. Separatçıların "dialoqdan" imtina etməsi isə problemi fərqli yollarla həll etmək baxımından rəsmi Bakıya sərf edir". **Onun fikrincə, Qarabağda mümkün antiterror əməliyyatı öncəsi Rusiya öz oyununu oynamağa başlayıb:** ""Ria Novosti"nin ABŞ-ın Qarabağdakı separatçılara "reinteqrasiya görüşlərindən imtina ediləcəksə, Bakı antiterror əməliyyatına başlayacaq" xəbərdarlığına dair tirajladığı informasiya Moskvanın prosesi idarə etmək gedişi olaraq görünür. Rusiya ABŞ-ı ittiham edir, o cümlədən "günah keçisi" olaraq separatçıların qondarma "xarici işlər naziri" Kazaryanı göstərir. Reinteqrasiya və bunun ABŞ-ın vasitəçiliyi ilə həyata keçirilməsi Moskvanın Qarabağdakı maraqlarına ciddi zərbədir, bu baxımdan, infotəxribatlarla prosesi baltalayır. Lakin başqa məqam da diqqətdən yayınmamalıdır: ABŞ xəbərdarlıq etsə belə, separatçıların reinteqrasiya prosesinə razılaşacaqları çətin görünür və mövcud vəziyyətdə, xüsusilə son təxribatlar fonunda antiterror əməliyyatı daha aktual görünür. Bakı antiterror əməliyyatı keçirmək qərarı veribsə, rusların bu cür infotəxribatları bunun qarşısını ala bilməyəcək. Bu baxımdan, rusların infotəxribatı daha çox özünü "sığortalamağa" bənzəyir. Mümkün antiterror əməliyyatında "Bakını buna sövq edən Vaşinqtondur" deyə bilmək üçün istinad nöqtələri yaradırlar".

❑ **Emil SALAMOĞLU**
**"Yeni Müsavat"**

# Erməni uşaqlar silahlandırılır

## Azyaşlı uşaqlardan hərbi fəaliyyətlərdə istifadə edilməsi beynəlxalq cinayətdir

**Hazırkı postmünaqişə dövründə Qarabağın dağlıq hissəsində yaşayan erməniəsilli vətəndaşların reinteqrasiya prosesini həyata keçirmək məqsədilə rəsmi Bakı tərəfindən dialoq təklifi irəli sürülsə də, separatçılar tərəfindən prosesi pozmaq məqsədi daşıyan bəzi siyasi, eləcə də hərbi fəaliyyətlərə cəhdlər edilir.**

Son vaxtlarda separatçılar tərəfindən intensivləşən hərbi fəaliyyətlərdə yetkinlik yaşına çatmayan erməni uşaqlardan istifadə edilməsi halları yenidən üzə çıxır. Bir neçə gün öncə Qarabağda azyaşlı uşaqların hərbi formada hərəkət etdikləri kadrların olduğu video erməni blogerlər tərəfindən sosial şəbəkələrdə yayımlanıb.



Bir müddət öncə Qarabağa gələrək rəsmi Bakı ilə region arasında reinteqrasiya prosesinin qarşısını almağa çalışan və sadə erməni vətəndaşları Azərbaycana qarşı mübarizəyə səsləyən Ruben Vardanyanı qeyd etmək lazımdır. Məhz Ruben Vardanyan tərəfindən yaradılan "Biz və Dağlarımız" ("Mı - Naşi Qorı"/"We Are Our Mountains") adlı inkişaf agentliyinin Qarabağda icra etdiyi layihələr içərisində "Davit bek Gənclər Çempionatı" ("Davit Bek" Youth Championship"/"Önoşeskiy Çempionat "David-Bek") adlı sistemli hərbi təlim və hazırlığı özündə ehtiva edən yarışın keçirilməsi də qeyd edilir. Gənclər arasında keçirilən, idman yarışı olaraq adlandırılan bu tədbir Xankəndi şəhərində fəaliyyət göstərən məktəblərin 16-18 yaş aralığında olan oğlan və qızlarını ehtiva edir. Tədbirin keçirilməsində məqsədin gənclər arasında hərbi mövzuların təbliğ edilməsi, gənclərin döyüş əməliyyatlarına hazırlığının təmin edilməsi və təcrübəli döyüş hissələrinin formalaşdırılmasının olduğu bildirilir. Lakin yarış elan olunduqdan bir müddət sonra Azərbaycan mətbuatında layihənin maliyyələşməsində beynəlxalq xarici bankların rolu ilə bağlı ifşaedici materiallar yayımlandıqdan sonra "Biz və Dağlarımız" inkişaf agentliyi tərəfindən layihənin məqsədi və vəzifələri barədə ictimaiyyətə açıqlanan məlumatların təhrif edilməsinə cəhd göstərilib. Qeyd edək ki, Beynəlxalq Cinayət Məhkəməsinin (Roma) Statutunda 15 yaş həddinə çatmamış uşaqların hərbi xidmətə çağırılması və ya səfərbər edilməsi, yaxud onların beynəlxalq və eləcə də beynəlxalq olmayan münaqişələr çərçivəsindəki hərbi əməliyyatlarda aktiv şəkildə istifadə olunması ilə əlaqədar hərəkətlərin müharibə cinayəti qismində təsnif olunması müəyyən edilib. Özünü Qarabağda yaşayan erməni vətəndaşların lideri kimi təqdim etməyə çalışan Araik Arutyunyan, Ruben Vardanyan başda olmaqla, separatçı rəhbərliyin azyaşlı uşaqlardan hərbi fəaliyyətlərdə istifadə etməsi beynəlxalq cinayətdir.

YENİ MÜSAVAT
N 107 (8243) 21 iyun 2023

**ABŞ-ın Cənubi Qafqazda fəallaşması Rusiya mediasında ciddi narahatlığa və bəzi təhlillərə yol açıb. Məsələn, "Novıye İzvestiya" qəzetinin yazarı Sergey Kron da maraqlı məqamlara toxunur:**

# Azərbaycanı Ukraynaya çevirmək planı: "Nə qədər ki İlham Əliyev prezidentdir..."

## Rusiyanın siyasi kluarlarında və mediasında narahatlıq hökm sürür - birdən Vaşinqton Bakını regionda əsas müttəfiqi edər; **deputat:** "Azərbaycanın ABŞ-la müttəfiqliyi reallaşır"



"Vaşinqton Azərbaycana doğru yeni dönüşə başlayıb. Prezident Co Baydenin fikrincə, Rusiyanı Cənubi Qafqazdan qovmaq və Bakını regionda əsas müttəfiq etməyin vaxtı çatıb. Buna görə də Azərbaycana erməni lobbisi ilə heç bir şəkildə bağlılığı olmayan Mark Libbini səfir göndərmək qərarı verilib". Məqalədə deyilir ki, bundan əvvəl Amerika Ermənilərinin Milli Komitəsi (ANCA) və ABŞ Konqresindəki nüfuzlu erməni lobbisi vəd etmişdilər ki, Libbi əlini "İncil"ə basaraq ABŞ-ın Azərbaycana silah satmayacağını vəd etməyənədək onun Bakıya səfir təyin edilməsinə imkan verməyəcəklər:

"Ağ Evin Azərbaycanda səfir vəzifəsinə namizədi Mark Libbi iyunun 12-də ABŞ senatorları qarşısında çıxış edib. O bildirirdi ki, Azərbaycandakı fəaliyyəti "ərazi bütövlüyü, suverenlik və regionun bütün sakinlərinin hüquq və təhlükəsizliyi" kimi məsələlərlə bağlı olacaq. Diplomatın dediyinə görə, Bakı və İrəvan arasında sülh müqaviləsinin əldə olunması ABŞ və Azərbaycan arasında daha dərin əlaqələrə yol açacaq, bu isə regionda sabitlik yaradacaq və münaqişədən fayda götürməyə çalışan rəqiblərin qarşısını alacaq. Libbi Konqresdə erməniyönlü mövqeyi ilə tanınan senator Bob Menendesin Laçın dəhlizi barədə sualına belə cavab verib: "Mən bu məsələyə qərəzli yanaşmaq istəmirəm və nəzərə alıram ki, bu çox mürəkkəb məsələni münaqişə tərəflərinin özləri həll etməlidir".

**"Vestnik Kavkaza" portalının baş təhlilçisi Andrey Petrov isə iddia edir ki, ABŞ Rusiya sülhməramlılarının amerikalı hərbçilərlə əvəz olunmasını istəyir:** "Amma Azərbaycan öz ərazisində heç bir beynəlxalq missiyaya razılıq verməyəcək. ABŞ Azərbaycanı Cənubi Qafqazda əsas müttəfiqi edə bilməyəcək. Əksinə, İrəvan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından çıxaraq ABŞ-ın əsas müttəfiqi olacaq. Onda Azərbaycan Rusiyanın regiondakı yeganə müttəfiqi olacaq. Məsələ burasındadır ki, amerikalıların Bakıya təklif etmək üçün onun milli maraqlarından, qonşu Rusiya ilə iqtisadi və mədəni əlaqələrindən üstün olacaq heç nələri yoxdur. Gələcəkdə necə olacaq? Nə qədər ki, İlham Əliyev prezidentdir, heç nə dəyişməyəcək".

Bəzi müşahidəçilər diqqəti belə bir məqama çəkirlər ki, Rusiya hakimiyyət dairələrində və Rusiya mediasında belə bir narahatlıq Vaşinqtonda Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin növbəti görüşünün ərəfəsinə təsadüf edib. Lakin Bakı strateji dilemma qarşısında deyil. Yəni bizim Ukrayna kimi Avroatlantik məkana açıq surətdə inteqrasiya etmək seçimimiz görünmür. Hakimiyyət anlayır ki, bu halda Azərbaycan Qərblə Rusiyanın növbəti toqquşma poliqonuna çevrilə bilər...

**Azərbaycan Demokratik İslahatlar Partiyasının sədri, deputat Asim Mollazadə "Yeni Müsavat"a qeyd etdi ki, Azərbaycanın ABŞ-la müttəfiqliyi reallaşır:** "Azərbaycanın siyasəti Amerikanın strateji maraqlarına uyğundur. Biz bugünlərdə Konqresdə, administrasiyada, müxtəlif araşdırma mərkəzlərində görüşlər keçirdik. Bu görüşlərdə Azərbaycanın siyasətini anlatdıq, qarşı tərəfdən də müsbət yanaşmanın şahidi olduq. ABŞ-ın bu istiqamətlərdə fikirləri ciddi şəkildə dəyişib. Nəhayət, ABŞ-da anlamağa başlayırlar ki, erməni diasporunun siyasəti Rusiyanın imperialist və İranın maraqları ilə üst-üstə düşür". **A.Mollazadə hesab edir ki, Azərbaycanın sülh istiqamətində atdığı addımlar Ermənistan tərəfindən qəbul olunmalıdır:** "Amerika nəhayət ki, fikirlərində dəyişiklik edir. İranın və Rusiyanın addımları onların gözlərini açdı. Ermənistandakı hərbi cinayətkarlar, müharibə tərəfdarı olan ABŞ-dakı erməni diasporu hər kəsin gözünü açmaqdadır. Vaşinqtonda görürlər ki, onlar qan, faciə istəyir, Ermənistanda yaşayan xalqa qurbanlıq kimi baxırlar".

**ABŞ-la müttəfiqliyin Rusiya tərəfindən kəskin qarşılanacağına münasibət bildirən deputatın sözlərinə görə, Azərbaycan strateji seçim etmir:** "Biz öz maraqlarımıza uyğun strateji seçim etmişik - qardaş Türkiyə ilə müttəfiqliyimiz var, İsraillə strateji tərəfdaşıq. Biz müstəqil ölkəyik, Rusiyanın diktəsi ilə hərəkət etmirik, İranın hədə-qorxularına da cavab verə biləcək dövlətik. Sadəcə, ABŞ-la maraqlar üst-üstə düşürsə, onları əməkdaşlığa dəvət edirik. Azərbaycanın ümumi xarici siyasət strategiyası əməkdaşlıq və tərəfdaşlıqdır. Əgər Rusiya əməkdaşlıq etmək istəyirsə, bərabərhüquqlu olmalıdır. Rusiya imperiyasını bərpa etmək istəyənlər Ukraynada qanlı savaş başlayıblar və nəticədə dünya təzyiq göstərir". **A.Mollazadə son vaxtlar bölgədə yaşanan gərginlikləri də Amerikanın sülh platformasına qarşı təxribat kimi qiymətləndirir:** "Ermənistan sülhə məhkum olmalıdır. İrəvan ciddi addımlar atmalıdır. Çünki bu, onların yeganə xilas yoludur".

**AMİP sədri Arzuxan Əlizadənin qəzetimizə dediyinə görə, rəsmi Bakı balanslaşdırılmış siyasət yürüdür. Partiya sədrinin fikrincə, Azərbaycan xüsusən İranın olduğu coğrafiyada ABŞ-la əlaqələrini yaxşılaşdırır:** "Amma Rusiya ilə münasibətləri korlamaq, buranı poliqona çevirmək qəti şəkildə olmaz. Azərbaycan hazırkı balans siyasətini gücləndirməlidir və Türkiyə ilə strateji müttəfiqliyini artırmalıdır. Türkiyə də həm Rusiya, həm ABŞ-la balans siyasəti yürüdür. Təbii ki, Rusiyanın narahatlığı başadüşüləndir. Eyni zamanda Azərbaycan da Qərblə əlaqələri Rusiyanın əleyhinə çevirməyib. Moskva yaxşı görür ki, Bakının ABŞ-la münasibətləri üçüncü qüvvəyə qarşı deyil".

"Baydenin iki dəfə məktub göndərməsi, Vaşinqtonun vasitəçilik təşəbbüsünü xeyli dərəcədə ələ alması görünür ki, Rusiyada hansısa siyasi dairələri və onların nəzarətində olan medianı narahat edib", - bunu isə **ekspert Fuad Əliyev** deyir. Onun sözlərinə görə, Rusiyanı Cənubi Qafqazdan sıxışdırmaq planı mövcuddur: "Lavrov və digərləri də oxşar fikirləri tez-tez səsləndirirlər. Ümumiyyətlə, Rusiya postsovet məkanında təsirlərinin azalmasından narahatdır. Amma Azərbaycan bu siyasətdə iştirak etmir. Biz son illərdə şimal qonşumuzla çox sağlam əlaqələr qurmuşuq. Yəni Rusiyanın bölgə ilə bağlı niyyəti ola bilər, amma bu, birbaşa Azərbaycana qarşı deyil. Xüsusən də Putinlə Əliyev arasında qarşılıqlı etimad mövcuddur. Bunu görüşlərdə, salamlaşanda, Qarabağda gedən proseslərdə görmək mümkündür. Əlbəttə, ABŞ və Fransa Rusiyanın yerini BMT egidası altında doldurmaq istəyir, amma Bakı buna əsla razılıq verməyəcək. Bu gün baş verənlər də mürəkkəb geostrateji oyunların nəticəsidir. Azərbaycan bu qarışıq hadisələrdən, çoxvektorlu proseslərdən baş çıxarmalıdır. Çünki cərəyan edən oyunlar heç də Ermənistan-Azərbaycan məsələsi deyil, region uğrunda qarşıdurmadır. Azərbaycan isə ABŞ-la münasibətləri Rusiyanı nəzərə almaqla inkişaf etdirir. Rusların həyəcanını anlamaq olar, ən yaxşısı qabağa düşüb yarımçıq qalan işləri reallaşdırmaqda ermənilərə təzyiq etsinlər".

**❑ Emil SALAMOĞLU**
**"Yeni Müsavat"**

# "Bakı tezliklə Qarabağı hərbsizləşdirəcək"

## Politoloq: "Həm ABŞ, həm də Rusiya Azərbaycanın yaradacağı yeni reallıqla qarşılaşacaq"

**"Azərbaycan və Ermənistan müdafiə nazirliklərinin mətbuata açıqlamalarında şərti sərhəddə və Qarabağda atışmalar barədə bir-brini təkzib edən məlumatlar verilir. XİN-in mətbuat xidmətləri isə qarşılıqlı olaraq bir-birilərini qeyri-səmimilikdə və danışıqlar prosesini pozmaqda ittiham edib. Arazdəyəndə körpü üstündə Azərbaycan və Ermənistan hərbçiləri arasında atışma olub, bir erməni postu dağıdılıb..."**

"AzPolitika.info" xəbər verir ki, bunu politoloq Fərhad Məmmədov Qarabağ ətrafında baş verən son hadisələri şərh edərkən bildirib.

Ekspert vəziyyətin kəskinləşməsinin pərdəarxası məqamlarını belə izah edir: "Birləşmiş Ştatlar və Rusiya öz baxışlarını irəli sürməyə çalışaraq danışıqlar formatında açıq qarşıdurmaya keçdilər: ABŞ sülh müqaviləsi, Rusiya kommunikasiyaları blokdan çıxarmaq təklifi ilə. Eyni zamanda ABŞ Ermənistan rəhbərliyi vasitəsilə Rusiyanın Ermənistan ərazisindəki kommunikasiyalara nəzarət funksiyasını minimuma endirməyə çalışır. Rusiya isə Qarabağdakı Araik və s. ilə Qarabağda qalan ermənilərin Bakı ilə dialoquna mane olmağa səy göstərir. ABŞ-da danışıqlar gözlənilir... amerikalılar görüşə fəal şəkildə hazırlaşır. Overçuk isə Moskva-İrəvan reyslərində ilişib... Azərbaycan və Ermənistan bu qarşıdurmadan danışıqlarda mövqelərini gücləndirmək üçün istifadə etməyə çalışır.

Azərbaycan Ermənistan rəhbərliyini prosesdə vicdanlı olmağa çağırır: ərazinin qarşılıqlı tanınması və daxili işlərə qarışmaması tələb olunur. Bakı rəsmi olaraq xarici işlər nazirinin dili ilə öz tələblərini/gözləntilərini irəli sürür: İrəvan Qarabağ ermənilərinə təsir imkanlarından konstruktiv şəkildə istifadə etməlidir.

Bakının Ermənistana təklifi danışıqlar prosesinin düyününü açır, sülh müqaviləsinin imzalanmasına maneələri aradan qaldırır. Digər tərəfdən, bu addım Ermənistan rəhbərliyinə Rusiya ilə münasibətlərdə daha subyektiv olmaq şansı verir. Axı Azərbaycan rəhbərliyinin qarşı tərəfə konstruktiv olmaq təklifi konkret zamana bağlıdır, vaxt məhduddur. Onsuz da bu addımlar atılacaq: Qarabağ hərbsizləşdiriləcək..."

YENİ MÜSAVAT
N 107 (8242) 21 iyun 2023


Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi**

# Müsəlman dünyasının tək nüvə dövləti ilə müttəfiqlik

## Azərbaycan-Pakistan münasibətləri hər iki dövlətin dünyada mövqeyinə necə təsir edir?

**Azərbaycanın başda Türkiyə olmaqla, türk dövlətləri ilə müttəfiqlik münasibətlərinin dərinləşdirilməsi prosesi paralel olaraq nüvə silahına malik yeganə müsəlman dövləti Pakistan İslam Respublikası ilə də aparılır. Ötən həftə Pakistanın baş naziri Şahbaz Şərifin Azərbaycana ilk rəsmi səfərinin reallaşması ilə iki dost ölkənin münasibətlərində yeni bir mərhələ başlanmış hesab edilir. Səfərin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Bakı səfərindən cəmi bir gün sonra həyata keçirilməsi də diqqətdən yayınmadı.**



Şahbaz Şərif

Pakistan-Azərbaycan münasibətlərini "Yeni Müsavat"a şərh edən **politoloq Qabil Hüseynli** bildirdi ki, Azərbaycan xalqı ilə Pakistan xalqı arasında dostluq əlaqələrinin tarixi kökləri var. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonrakı müddətdə isə dövlətlərimiz arasında rəsmi səviyyədə əməkdaşlıq, gözlənildiyi kimi, vüsət aldı. Bu gün artıq əlaqələr strateji müttəfiqlik münasibətləri səviyyəsinə qədər yüksəlməkdədir. Azərbaycan və Pakistan arasında çoxşaxəli münasibətlər mövcuddur. Humanitar, iqtisadi, hərbi, səhiyyə və digər sahələrdə sıx əməkdaşlıq münasibətləri var: "Hər iki ölkə bir-birinə sıx dostluq əlaqələri ilə bağlıdır. Bu amil Azərbaycanla Pakistanın istənilən məsələdə birgə hərəkət etməsində, istənilən sahədə əməkdaşlıq münasibətləri qurmasında öz müsbət təsirini göstərir. Pakistan Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətlərdən biridir. Diplomatik əlaqələrin əsası isə 1992-ci ilin iyununda qoyulub. Bakıda Pakistan səfirliyi 1993-cü ilin martında açılıb, Azərbaycan İslamabadda öz diplomatik missiyasına 1997-ci ilin avqustunda başlayıb. İki dövlət arasında münasibətlərin inkişafı üçün ümummilli lider Heydər Əliyev böyük xidmətlər göstərib. Hazırda bu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Pakistanla Azərbaycan arasında dostluq telləri o qədər güclüdür ki, Pakistanda hakimiyyətə kimin, hansı siyasi qüvvənin gəlməsindən asılı olmayaraq münasibətlər yüksələn xətlə davam edib və edir. Münasibətlərimizin müttəfiqlik səviyyəsinə çatması həm də hər iki ölkənin dünyada mövqelərini gücləndirir. İki ölkə arasında əməkdaşlıq siyasi, iqtisadi, təhlükəsizlik, mədəniyyət, müdafiə və digər sahələrdə davam etdirilir. Pakistan keçmiş Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ilk vaxtlardan öz qəti mövqeyini bildirib. Ermənistanı işğalçı adlandırıb. Pakistan Azərbaycana dəstək vermək və həmrəylik nümayiş etdirməklə bu günə kimi Ermənistanla diplomatik əlaqələr qurmayıb, onu bir dövlət kimi tanımayıb. Həmçinin Pakistan Senatının Xarici Əlaqələr Komitəsi Azərbaycana dəstəyini möhkəmləndirmək üçün Xocalı faciəsini soyqırımı kimi tanıyıb".




**Politoloq qeyd etdi ki, Azərbaycan da bütün məsələlərdə Pakistanın mövqeyini dəstəkləyir. Hər iki dövlət bir çox beynəlxalq platformalarda eyni maraqlardan çıxış edərək öz fəaliyyətlərini koordinasiya edir, bir-birini müəyyən məsələlərdə qeyd-şərtsiz dəstəkləyirlər:** "İki dost dövlət müdafiə, enerji, infrastruktur layihələrinin icrası, informasiya texnologiyaları, səhiyyə və əczaçılıq, tekstil və farmakoloji preparatlar, xüsusilə bütün mümkün domenlərdə birgə müəssisələrin qurulması və digər sahələrdə əməkdaşlıq edirlər. Eyni zamanda Heydər Əliyev Fondunun bu ölkədə həyata keçirdiyi bir sıra humanitar və xeyriyyə xarakterli layihələr də ölkələrimiz arasında əlaqələrin inkişafına mühüm töhfə kimi dəyərləndirilir. Belə ki, Fond "Tolerantlığın ünvanı - Azərbaycan" layihəsi çərçivəsində Pakistanda bir neçə məktəbin yenidən qurulmasına dəstək nümayiş etdirib. Bu baxımdan, Pakistanda qızlar üçün yeni məktəbin tikintisi, İslamabadda, eləcə də Pakistanın digər əyalətlərində silsilə humanitar aksiyalar da xeyriyyəçilik tədbirləri sırasında yer alır".

**Politoloq Azərbaycan-Pakistan əlaqələrində ən diqqət edilən və inkişafda olan sahənin hərbi əməkdaşlıq sahəsi olduğunu vurğuladı:** "Pakistan-Azərbaycan əməkdaşlığında hərbi amil hər zaman mühüm rol oynayıb və bu gün də belədir. Azərbaycan Respublikası ilə Pakistan İslam Respublikası arasında 2002-ci ildə imzalanan müdafiə və hərbi sahədə əməkdaşlıq haqqında sazişdə hər iki ölkənin hərbi-siyasi sahədə tərəfdaşlığının prioritet istiqamətləri əks olunub. Bu müqavilə ilə dövlətlərimiz arasında hərbi əlaqələr daha da genişlənib.

2020-ci ilin sentyabrın 27-də başlanan İkinci Qarabağ müharibəsində ilk gündən Pakistan yenə də ədalətli mövqe nümayiş etdirərək Azərbaycanın haqlı mövqeyini dəstəklədi, ən yüksək səviyyədə Azərbaycana dəstək verməyə hazır olduğunu bəyan elədi. Hətta belə bir bəyanat da verilmişdi ki, Azərbaycan istəyərsə, istənilən an Azərbaycana hərbi dəstək verməyə hazırdır. Pakistanın bu mövqeyi Azərbaycan-Pakistan münasibətlərindəki qardaşlıq tellərini daha da möhkəmlətdi.

Pakistanın baş naziri Şahbaz Şərifin ötən həftə Bakıya səfərində isə Azərbaycanla müdafiə və müdafiə sənayesi sahəsində əməkdaşlığı müzakirə edilib, əvvəllər keçirilən birgə hərbi təlimlərin sayını artırmaq barədə razılığa gəlindiyi barədə rəsmi məlumat verilib. Azərbaycan Prezidenti İlham Əliyev həmin gün bəyan elədi ki, buna ehtiyac var, çünki dünyada vəziyyət dəyişir, qeyri-sabitlik zonaları çoxalır.

Azərbaycanla Pakistan arasında əməkdaşlıq, müttəfiqlik istiqamətində bir sıra mühüm sənədlər imzalanıb. Azərbaycan-Türkiyə-Pakistan geosiyasi üçbucağı qurulub. Regional və beynəlxalq əhəmiyyətə malik olan geostrateji reallıqların yarandığı yeni dönəmdə hər üç ölkə müxtəlif sahələrdə əməkdaşlığın dərinləşdirilməsində, bir-birinin milli maraqlarının beynəlxalq müstəvidə qorunmasında güclü siyasi iradə nümayiş etdirir. Türkiyə, Pakistan və Azərbaycanın strateji müttəfiqliyi Avrasiyada yeni aparıcı güc mərkəzinin formalaşmasını şərtləndirir. Bu üç dövlət beynəlxalq müstəvidə, regional məsələlərdə bir-birinə ən yüksək səviyyədə dəstək verirlər".


zərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Etibar SEYİDAĞA


# Ruslar nüvə silahı tətbiqinə qarşı çıxır

## Sorğuda iştirak edənlərin yalnız 10 faizi Ukraynaya qalib gəlmək üçün nüvə silahının tətbiqini istəyir

**Rusiyalıların böyük əksəriyyəti Ukrayna müharibəsində nüvə silahı tətbiqinə qarşı çıxır. Novator.az-ın məlumatına görə, ölkənin "Levada" mərkəzinin keçirdiyi sorğu belə deməyə əsas verir.**

Sorğu mayın 25-dən 31-dək Rusiyanın 50 subyektinin ümumilikdə 137 yaşayış məntəqəsində keçirilib.

"Levada"nın əməkdaşları yaşı 18-dən yuxarı olan 1603 nəfərlə fərdi müsahibələr aparıb. Respondentlərin qarşısında belə bir məsələ qoyulub: "Bəziləri hesab edir ki, Ukraynaya qalib gəlmək üçün Rusiya nüvə silahı tətbiq etməlidir. Bəziləri isə bu fikirdədir ki, heç bir halda nüvə silahına əl atmaq olmaz. Siz bu yanaşmalardan hansını müdafiə edirsiniz?"



Respondentlərin 86 faizi "heç bir halda nüvə silahına əl atmaq olmaz" mövqeyində durduğunu bildirib.

Sorğuda iştirak edənlərin yalnız 10 faizi Ukraynaya qalib gəlmək üçün nüvə silahının tətbiqinə tərəfdar çıxıb.

Respondentlərin 4 faizi mövqe bildirməkdə çətinlik çəkib.

2014-cü ildə Ukraynanın Krım yarımadasını tam, Donbas bölgəsini qismən işğal edən Rusiya 2022-ci il fevralın 24-dən bu ölkəyə qarşı total müharibə aparır. O vaxtdan Rusiya prezidenti Vladimir Putin bir neçə dəfə Ukrayna dövlətini və Kiyevin Qərbdəki müttəfiqlərini nüvə silahı ilə təhdid edib.

**"Levada"nın son sorğusunun nəticələrini şərh edən ABŞ-ın "US News & World Report" onlayn nəşri bunu Rusiya cəmiyyətinin prezidentin yanaşmasını rədd etməsi kimi qiymətləndirib. Eyni zamanda nəşr xatırladıb ki, Putin hələ də təhdidlərindən əl çəkmir:** "İyunun 16-da Peterburq Beynəlxalq İqtisadi Forumunda çıxış edən Putin deyib ki, Rusiyanın arsenalındakı bütün silahlardan istifadə oluna bilər və bu məsələdə heç bir etiraz onu qorxutmur. Putin vurğulayıb ki, Rusiyanın mövcudluğuna təhlükə yaranarsa, istənilən vasitədən, o cümlədən nüvə silahından istifadə oluna bilər".

Rusiya dünyada ən çox nüvə başlığı olan ölkədir. Nüvə silahları ilə bağlı hesabatlar hazırlayan beynəlxalq mənbələr hazırda dünyada 12 min 500 ədəddən çox nüvə başlığı olduğunu bildirir. Hesablamalara görə, bunlardan 5890-a yaxını Rusiyaya, 5250-yə yaxını ABŞ-a məxsusdur. Çin, Fransa, Böyük Britaniya, Pakistan, Hindistan, İsrail və Şimali Koreya da nüvə dövlətidir.

YENİ MÜSAVAT
N 107 (8243) 21 iyun 2023

# Paşinyanın Putinə 60 zənginin sensasion təfərrüatları

## Ermənistanın baş naziri Şuşa uğrunda döyüşlərdən, Azərbaycanın Megri şərtindən, Ağdam əvəzinə Hadrut təklifindən danışdı

**"Oktyabrın 1-də günortadan sonra mənim Putinlə telefon danışığım oldu. Müharibənin dayandırılması üçün ilk cəhd isə oktyabrın 7-də mən Putinə ad gününü təbrik etmək üçün zəng edəndə oldu". Bunu iyunun 20-də Ermənistanın baş naziri Nikol Paşinyan 44 günlük müharibənin şəraitini araşdıran komissiyanın iclasında deyib.**

Paşinyan daha sonra deyib: "Putin müharibəni dayandırmaq üçün səylərə vasitəçilik etmək istədiyini bildirdi. Şərtlərlə maraqlanaraq razılaşdığımı dedim. Biz hesab edirdik ki, atəşkəs ilkin şərt olmadan olmalıdır. Axşam ikinci söhbət oldu və Putin dedi ki, Əliyev bundan imtina edib. Ertəsi gün Putin dedi ki, Əliyev bir şərt irəli sürür - Füzuli döyüşsüz təslim edilməlidir və erməni qüvvələri isə Araz boyu Xudafərin su anbarına çəkilməlidir ki, bura Azərbaycanın nəzarətində olsun. Bundan başqa, Bakı hərbi əsirlərin qaytarılmasının mümkünlüyünü nəzərə alaraq, Quliyev və Əsgərovu (Kəlbəcər girovları Şahbaz Quliyev və Dilqəm Əsgərov-red) geri almaq istəyib. Ancaq bunun üçün hərbi əməliyyatların dayandırılması deyil, ölənlərin dəfni üçün humanitar barışıq elan edildi və bir daha müharibəyə başlamamaq üçün heç bir öhdəlik qoyulmadı. Mən imtina etdim".

**Paşinyan deyib ki, növbəti söhbət oktyabrın 8-də olub:** "Putin bildirdi ki, Azərbaycan oktyabrın 10-u gecədən atəşkəs rejiminin yaradılmasına razılaşıb. Bunu müzakirə etmək üçün XİN rəhbəri oktyabrın 9-da Moskvaya dəvət olunub. Əsirlər və ölənlərin cəsədləri də dəyişdirilməli idi. Razılaşdım. Oktyabrın 9-da xarici işlər nazirləri arasında üçtərəfli danışıqlar Moskvada başladı və 10-na keçən gecə başa çatdı. Bundan sonra tərəflərin razılığa gəldiyi bəyanatı açıqlandı. Bu, bizim üçün məqbul idi və mən Müdafiə Nazirliyinə və Baş Qərargaha atəşkəs rejiminin saxlanması barədə göstəriş verdim. Lakin kiçik fasilələrdən sonra Azərbaycan hücumlarını artırdı, onlar artıq keçmiş DQMV ərazisinə keçdi. Təbii ki, qoşunlara hər şeyi etmək əmri verildi. Amma eyni zamanda Moskva razılaşmalarına uyğun olaraq atəşkəsin yaradılması və saxlanması üçün diplomatik səylər göstərildi".

"Şərtlər belə idi ki, 5+2 düsturuna əsasən 7 rayon geri qaytarılır, Qarabağla Ermənistan arasında Laçın dəhlizi boyunca kommunikasiyanın təmin edilməsi məsələsi həll olunur, Rusiya sülhməramlıları bölgəyə yerləşdirilir, status isə qeyri-müəyyən olaraq qalır. Putinlə razılaşdıq ki, axşam mövqeyimizi bildirəcəyəm. Günün ikinci yarısında parlamentdənkənar müxalifət nümayəndələri ilə görüşdüm. Daha sonra prezidentin, katolikosun və parlament qüvvələrinin nümayəndələrinin iştirakı ilə Təhlükəsizlik Şurası çağırıldı və bu zaman mən zəng edib Putinin təklifini qəbul etdiyimi bildirmək fikrində olduğumu dedim. Eyni zamanda əlavə etdim ki, mən orada olanlardan kiminsə bu qərara görə məsuliyyəti mənimlə bölüşəcəyini gözləmirəm, sadəcə olaraq, onlara gedən proseslər barədə məlumat verdim", - baş nazir qeyd edib.

**Paşinyan müxalifət təmsilçiləri ilə görüşü və Putinlə telefon danışığından da söz açıb:** "Parlamentdənkənar qüvvələrlə görüşdə dedim ki, onlara məlumat verməklə mən ictimaiyyəti məlumatlandırıram, çünki canlı yayımda insanlara hər şeyi deyə bilmərəm. Axşam Putinə zəng edib dedim ki, bu şərtlərlə müharibəni dayandırmağa razıyam. Rusiya prezidenti dedi ki, Əliyevlə danışacaq, mənə zəng edəcək. O zaman 2 rayon praktiki olaraq Azərbaycanın nəzarətində idi. Ertəsi gün, oktyabrın 20-də səhər saatlarında Putin zəng edərək diqqətə çatdırdı ki, Azərbaycan 7 rayonun hamısını alarsa, müharibəni dayandırmağa razıdır və şəhər əhalisinin 90 faizini təşkil edən Şuşanın azərbaycanlı sakinlərinin qayıtmasına zəmanət almaq istəyir. Bu, Rusiya üçün məqbul həll idi. Çünki onlar deyirdilər ki, uzun illər əvvəl müzakirə olunan həll planında həmişə qaçqın və köçkünlərin qayıtması ilə bağlı bənd olub. Bu bənd ortaya çıxanda soruşdum ki, Azərbaycanın fikrincə, bu təminatlar necə olmalıdır? Məlum oldu ki, mən bəyan etməliyəm ki, azərbaycanlıların Şuşaya və Qarabağın digər yaşayış məntəqələrinə qayıtmasına razıyam. Putin təklif etdi ki, bu məsələ statusla bağlı qalsın, yəni azərbaycanlıların qayıtması statusun müzakirəsi kontekstində müzakirə olunsun. Razılaşdım, lakin Azərbaycan statusla bağlı heç nəyi müzakirə etmək fikrində olmadığını bildirərək bu təklifi rədd etdi. Üstəlik, indiki təklifə görə, təkcə Şuşa azərbaycanlılarının deyil, bütün rayonların azərbaycanlılarının şəhərə birbaşa və maneəsiz



çıxışı olmalıdır. Daha bir tələb əlavə olundu ki, Azərbaycanın Naxçıvanla əlaqəsini təmin etmək üçün sülhməramlılar təkcə Qarabağ və Laçında deyil, Mehridə də yerləşdirilməlidir. Mən buna razı olmadım, Ermənistan ərazisindən eksterritorial dəhlizin yaradılmasına razı olmadım, bildirdim ki, dəhlizə yox, yolların açılmasına razıyam. Beləliklə, 19 oktyabr təklifi kontekstində müharibənin dayandırılması üçün şərtlər belə idi ki, 7 rayonun hamısı Azərbaycanın nəzarəti altında olmalıdır, Qarabağın statusu dəqiqləşdirilməməlidir, keçmiş DQMV-nin əldən çıxmış əraziləri Azərbaycanın nəzarətində olmalıdır, Şuşa yuxarıdakı ssenari üzrə Azərbaycana təslim edilməlidir, sülhməramlılar Mehridə yerləşdirilməli və faktiki olaraq eksterritorial dəhliz yaradılmalıdır. Vəziyyətin ağırlığını başa düşsəm də, belə şərtlərlə razılaşa bilməzdim. İndi arxaya baxıb yenə deyirəm ki, razılaşa bilməzdim. Əgər bu şərtlərlə razılaşa biləcəyinə inanan varsa, açıq desin. Oktyabrın 23-də ABŞ-ın hərbi əməliyyatları dayandırmaq təşəbbüsü ortaya çıxdı. Təşəbbüs yalnız oktyabrın 25-də razılaşdırıldı. Oktyabrın 26-da səhər saat 8-dən atəşkəs başlamalı idi. Amma olmadı", - Paşinyan çıxışına əlavə edib.

**Ermənistanın baş naziri Nikol Paşinyan Şuşanın strateji əhəmiyyətindən danışıb**: "Oktyabrın 4-də düşmənin müdafiəni yarıb Cəbrayıla çatdığı 9-cu müdafiə bölgəsində ciddi problemlər yaşadıq. Orduya Azərbaycan Silahlı Qüvvələrinin irəliləyişini dayandırmaq tapşırılmışdı, çünki atəşkəs yaratmaq cəhdləri göstərdi ki, biz onların irəliləyişini dayandıra bilməyincə, müharibəni dayandırmaq üçün bütün cəhdlər faydasız olacaq. Yaxud ağrılı güzəştləri etməli idik. Şuşa uğrunda döyüşlər davam etdikcə mübarizənin mənası və motivi var idi və Azərbaycanın məqsədinin Şuşa olduğu bəlli idi. Şuşanı almaqla Laçın yoluna nəzarət əldə etdilər, Xankəndinə arxadan hücuma keçmək imkanı əldə etdilər".

Ermənistanın baş naziri deyib ki, Qarabağda hərbi əməliyyatların bitməsi və atəşkəs barədə üçtərəfli bəyanat üzrə Rusiya, Azərbaycan və Ermənistan liderlərinin danışıqları 6 noyabr 2020-ci ildə başlayıb.

Onun sözlərinə görə, bəyanatı bir şərtlə imzalamağa razılaşıb ki, orada Ermənistan ərazisindən keçən ekstraterritorial dəhlizlə və Şuşa ilə bağlı müddəalar olmayacaq. Bundan əlavə, Ermənistan Hadrutun müqabilində Ağdam rayonunu geri qaytarmağı təklif edib.

**Paşinyan Rusiya Prezidentinin vasitəçiliyi ilə danışıqları davam etdirdiyini qeyd edib və 8-9 noyabr tarixlərində onlar arasında 20-yə yaxın, müharibə davam etdiyi müddət ərzində isə 60-a yaxın telefon danışığı olduğunu əlavə edib:** "Qısa müddət ərzində məlum oldu ki, Azərbaycan tərəfi Ağdamın Hadrutla dəyişdirilməsi planını qəbul etmir, buna görə də tərəflər Ağdam və Şuşa haqqında heç bir maddə yer almayan mətnlə bağlı razılığa gəliblər. Bəyanatın mətnində hərbi əməliyyatların dayandırılması, 7 rayonun qaytarılması, Laçın dəhlizində və Qarabağda rus sülhməramlılarının yerləşdirilməsi yer alıb.

Mən əslində noyabrın 8-dən 9-na keçən gecə o sənədi imzaladım. Sonradan məlum oldu ki, Azərbaycan bu sənədi imzalamır və daim yeni tələblər irəli sürür. Rusiya Prezidenti deyəndə ki, Azərbaycan Tavuş vilayətindəki anklavların qaytarılması ilə bağlı bəndin bəyanata əlavə olunmasını təklif edir, mən imtina etdim və belə bir sənədin imzalanmasını istisna etdiyimi rəsmən bəyan etdim".

Ermənistan hökumətinin başçısı vurğulayıb ki, bir müddət sonra məlum oldu ki, bu bəndin oraya daxil edilməməsi ilə bağlı razılıq əldə olunub.

**Paşinyanın sözlərinə görə, gecə yarısına yaxın (noyabrın 9-dan 10-na keçən gecə - red.) hərbi əməliyyatların intensivliyi artıb, həmçinin Xankəndi səmasında çoxlu sayda pilotsuz uçuş aparatlarının olması barədə xəbərlər yayılıb. Paşinyan əlavə edib ki, mürəkkəb və uzun sürən müzakirələrdən sonra məlum sənədi imzalayıb:** "Sənədin son versiyası 9 noyabr səhəri təklif olunan variantdan pis olsa da, Meğri vasitəsilə Azərbaycana dəhliz verilməsi və ya Tavuş vilayətindəki sovet anklavlarının təhvil verilməsini təklif edən variantdan daha yaxşı oldu".

YENİ MÜSAVAT
N 107 (8243) 21 iyun 2023



# Turizm sektorumuzun şahı

Zamin HACI
zaminhaci@gmail.com

**Şahdağ Turizm Mərkəzinin (bundan sonra qısaca ŞTM) ümumi zərərinin 100 milyon manata çatması xəbəri yayılıb. Əgər biz dövlətə 10 manat zərər vursaq, nə baş verər? Dərhal bir sürü idarə at ilxısı, köpək sürüsü kimi üstümüzə tökülər. Biri su xəttini kəsər, o biri işıq dirəyini uçurdar, üçüncü bizi qazda boğar. Ancaq vətəndaşa qarşı amansız münasibətin eynisi cürbəcür ŞTM-lərə qarşı nədənsə görünmür.**

ŞTM dağ kurortudur, orada xizək yolları-zad var və bir dəfə neçə il qabaq uşaq-muşağın təkidi ilə məcburən çıxmışıq. Açığı, hər addım atmağa görə Azərbaycan yaşam standartlarına qətiyyən uyğun gəlməyən çox baha qiymətlər qoyulan, pullar alınan o yerdən heç xoşum gəlmədi. Vətəndaşı qazlamaq hesabına forslanmağa nifrət edirəm. Bu turistik məkan isə açıq-aşkar ikiqat qazlama obyektidir.

Çünki çoxlarımız ŞTM-i özəl obyekt sayır, ancaq belə deyil. Onu bir şübhəli şirkətə idarəçiliyə veriblər, yiyəsi isə Dövlət Turizm Agentliyidir. ŞTM-in tikintisi də dövlət büdcəmiz hesabına, təxminən yarım milyard manata başa gəlib (istəyirəm bir nazir çıxıb desin: "Ucuz tikiblər, gəlin qiyməti qaldıraq"). Təbii ki, hər hansı turistik obyekt təzə tikilərkən dövlətdən dotasiya ala bilər. Necə deyərlər, özünü tutana qədər. Ancaq ŞTM 2011-ci ildə istifadəyə verilib! 13 ildə bir qəpik xeyir vermədiyi bəs deyilmiş, ziyanı 100 milyona qalxıb.

Keçən il ŞTM-ə dövlət büdcəsindən 56 milyon manat ayrılacağı xəbəri yayılmışdı. Mərkəzi işlədənlər təkzib elədilər, dedilər guya dotasiya məbləği şişirdilib, əslində 12 milyon alıblar. Lap buna inandıq. Guya 12 milyon az puldur...

Elə dünən bu kimi zərər xəbərlərinin böyründə cəlilabadlı vətəndaşın 2 ton yararsız at ətini inək əti adı ilə satmaq cəhdi zamanı tutulduğu yazılmışdı. Lap yaxşı. Belə saxtakarların, yalan olmasın, gözünü çıxartmaq azdır, xalqın sağlamlığı ilə oynayırlar. Ancaq niyə saxta ət satan cəzalanır, saxta turizm satanlar isə əksinə, dotasiya alır? Bir daha "ödəniş qəbzimizi" xatırladıram: ŞTM-i tikməyə pul vermişik, gedib sürüşsək, pul verməliyik, zərərlə işlədiyi üçün də pul veririk. Üç qat ödəniş oldumu? Oldu. Bəs buna kim cavabdehdir? Olmaya Bayden və Obama? Bir az Putindən də şübhələnirəm.

Əsas məsələ bu deyil. Bizdə ata sözü var: "Malına düşdü talan, sən də bir yandan tala". Maşallah, uca millətimiz hazırda bu məsələ gen-bol əməl edir və əlinə suç keçisi düşəndə onun dərisinə saman təpir. Məsələn, bu yaxında bir gülməşəkər müəllimciyə sırğa taxmışdılar, hay-harayın, qınağın, türkün sözü, təpkinin və təpiyin biri qəpikdən idi. Lakin 100 milyonu çırpışdır, sənin əlindən-ayağından öpəcəklər. Peşəkara hörmət edirik, bəs necə. Vasif müəllimi xatırlasaq, lap qibtə eləyirik.

Yeri gəlmişkən, ağlıma bir məzəli söz oyunu gəlib. Heyvanların dərisinə saman-filan doldurub müqəvvasını qayırmaq sənətinin adı bilirsiniz nədir? Taksidermiya! Mükəmməl şəkildə yerinə düşür, çünki bu saat bizdə taksi sürənlərin dərisinə saman təpməyə hazırlaşırlar. Hərçənd taksidermiya qədim yunanca "taksis" - qayda, "derma" - dəri sözlərindən yaranıb və bizim taksiçilərlə əlaqəsi yoxdur.

Söz oyununa girmişiksə, elə bununla da bitirək: şahın adına olan dağın xərcini rəiyyət çəkməyə borcludur.

# Laçın yoluna Avropadan "hücum": AŞ PA gündəliyə saldı, Cenevrədə isə...

## Nə üçün 30 ildir Naxçıvanla Azərbaycanın digər əraziləri arasında hərəkət edə bilməyən azərbaycanlıların hüququndan danışmır, müzakirə etmirlər?

**Strasburqda Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) növbəti yay sessiyası öz işinə başlayıb. Sessiya çərçivəsində Rusiyanın Ukraynaya təcavüzü, miqrasiya, Böyük Britaniyanın insan hüquqları qanunvericiliyində islahatlarla bağlı məsələlərin müzakirəsi planlaşdırılır.**



Sessiyada Milli Məclisin deputatları - AŞ PA-da nümayəndə heyətinin rəhbəri, parlamentin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov, nümayəndə heyətinin üzvləri Rafael Hüseynov, Kamal Cəfərov, Erkin Qədirli, Könül Nurullayeva, Pərvin Kərimzadə, Nigar Arpadarai iştirak edirlər.

"Azərbaycan nümayəndə heyətinin Laçın dəhlizi məsələsinin AŞ PA-nın yay sessiyasının gündəliyinə salınmasının qarşısını almaq üçün göstərdiyi səylər uğurlu alınmayıb".

Bu barədə sevincək məlumatı Ermənistanın AŞ PA-dakı nümayəndə heyətinin üzvü Vladimir Vardanyan məlumat verib.

"AŞ PA səs çoxluğu ilə bu məsələni cari sessiyanın gündəliyinə daxil edib", - deyə erməni deputat bildirib. Məlumata görə, bu müzakirə iyunun 22-də olacaq. İyunun 19-da isə Cenevrədə BMT İnsan Hüquqları Şurasının 53-cü sessiyası keçirilib. Erməni mənbələrinin məlumatına görə, BMT-nin İnsan Haqları üzrə Ali Komissarı Folkner Türk dünyada insan haqlarının mövcud vəziyyəti ilə bağlı hesabat təqdim edib. Türk Cənubi Qafqaz regionuna toxunaraq deyib: "Mənim ofisim illərdir Cənubi Qafqaz regionunda de-fakto hakimiyyətin faktiki nəzarəti altında olan ərazilərə çıxış əldə etməyə çalışır. BMT-nin insan hüquqları mexanizminin müntəzəm monitorinqi və əlaqəsi olmaması səbəbindən insanlar daha həssas olurlar. Giriş bizə insan hüquqlarının qiymətləndirilməsini aparmağa və insanların ehtiyaclarına cavab verməyə imkan verəcək və etimad yaratmağa kömək edəcək. Mən Ermənistan və Azərbaycanı insan hüquqlarına əsaslanan sülh səylərini aktivləşdirməyə çağırıram. Mən həmçinin Laçın dəhlizi boyunca sərbəst və təhlükəsiz hərəkətin vacibliyini və mülki əhaliyə hər hansı humanitar təsirin qarşısının alınmasının vacibliyini vurğulayıram".

**Azad Vətən Partiyasının sədri Akif Nağı bu məsələdə Azərbaycan tərəfin görməli olduğu işləri sadaladı:** "BMT-nin İnsan Hüquqları Şurasının iclasında deyilən fikirlər həqiqətdən uzaqdır. Bu, tam aydın şəkildə görünür. Ümumiyyətlə, bu cür yanlış fikirlərin arxasında erməni, xristian təəssübkeşliyi, həmçinin beynəlxalq qurumları idarə edən ayrı-ayrı dövlətlərin maraqları dayanır. Bunu özümüz üçün tam aydınlaşdırmalı və uyğun taktiki və strateji gedişlər etməliyik. Şuranın rəhbəri Laçın dəhlizi ilə ermənilərin sərbəst hərəkət etməsinin vacibliyini qeyd edir. Bu cür açıqlama və sənədlərlə bağlı əsaslandırılmış mövqe ortaya qoymalı, BMT rəhbərliyi qarşısında bu şuranın qərəzli mövqeyi ilə bağlı məsələ qaldırmalıyıq. Hazırladığımız sənədə baxılmasına nail olmalıyıq. Bu sənəddə ilk olaraq faktlarla göstərilməlidir ki, Laçın dəhlizi bağlı deyil. Sonra isə sual qoyulmalıdır ki, nə üçün 30 ildir Naxçıvanla Azərbaycanın digər əraziləri arasında hərəkət edə bilməyən azərbaycanlıların hüququndan danışmır, müzakirə etmirsiniz? Bu sənəd BMT-yə üzv ölkələrə özəl olaraq da göndərilməli və münasibət bildirmələri xahiş olunmalıdır. Eyni məzmunlu iş partiyalar və QHT-lər tərəfindən də görülməlidir, amma təbii ki, faktlar əsasında və beynəlxalq normalara riayət edilməsi şərti ilə. Mahiyyət ondan ibarətdir ki, biz qərəzli sənəd və açıqlama ilə çıxış edən qurumları peşman etməliyik ki, bir də o cür davranmaqdan çəkinsinlər".

**AĞ Partiya başqanının I müavini, siyasi şərhçi Əhəd Məmmədli belə bir məsələnin sessiyada müzakirəyə çıxarılmasını ölkəmizə qarşı hörmətsizlik hesab edir:** "Avropa Birliyi Şurası, Parlamenti və bu qitənin digər təşkilatları Azərbaycan və Türkiyəyə sözün əsl mənasında düşmən kəsiliblər. Ələxüsus da 44 günlük müharibədən bu günlərimizə qədər əksər Avropa ölkələri anti-Azərbaycan mövqeyi göstərirlər. Burada təbii ki, Ermənistanın xeyrinə xristian təəssübkeşliyi, türkfobiya, islamafobiyada yer alır, amma burada XİN və Diaspora Komitəmizin də günahı var. Bu qədər pullar xərclənir, Avropadan qonaqlar gəlir. Bütün bunlara rəğmən, məsələn, Fransa Senatında bir deputat tapılmır ki, xeyrimizə səs versin. Dövlət tərəfindən səfirliklər, konsulluqlar, yerli diaspora komitələrinə bu qədər pullar xərclənir, amma nəticə yox ki, yox. AŞ PA-nın yay sessiyasında Laçın dəhlizinin müzakirəyə çıxarılması və BMT-nin Laçın dəhlizi ilə bağlı açıqlama verilməsi Azərbaycan ərazi bütövlüyünə hörmətsizlikdir. Nə yaxşı ki, nə AŞ PA, nə də BMT-nin mövqeyi heç nəyi həll etmir. BMT formal təşkilata çevrilib və islahatlara getməlidir. AŞ PA da eynən dişsiz bir qurumdur və BMT kimi Azərbaycana real mənfi təsir gücündə deyil. Bütün bunlara rəğmən Azərbaycan beynəlxalq strukturlar və xarici ölkələrlə, xüsusən də, Qərb dövlətləri ilə daha ciddi işləməlidir".

**"Atlas" Araşdırmalar Mərkəzinin sədri Elxan Şahinoğlu isə qeyd etdi ki, Ermənistan əvvəllər olduğu kimi, Azərbaycan əleyhinə kampaniyasını davam etdirməkdədir:** "Ermənistan təxribatçı siyasətindən geri durmaq fikrində deyil. Çalışır ki, beynəlxalq təşkilatlarda Azərbaycan əleyhinə hansısa qətnamələr, sənədlər qəbul olunsun, çıxışlar edilsin. Ən münasib məkanlardan biri kimi də Avropa Şurası Parlament Assambleyasını görürlər. Laçın məsələsini yenə də qaldırırlar. Halbuki bu məsələ artıq həll olunub. Sərhəd-keçid məntəqəsi də fəaliyyət göstərir. Sadəcə, təxribatlar törədiləndə müvəqqəti olaraq sərhəd-buraxılış məntəqəsi fəaliyyətini dayandırır. İndi də təhlükə yaranıb. Amma normalda işləyir. Ermənilər həmin sərhəd-keçid məntəqəsindən istifadə edirlər. Xəstələrini də keçirə bilirlər. Burada heç bir problem yoxdur. Amma saxta xəbərlərlə Ermənistan bu məsələni Avropa Şurası Parlament Assambleyasında qaldırmağa çalışır. Bununla çalışır ki, AŞ PA-da Azərbaycan əleyhinə növbəti qətnamənin qəbuluna nail olsun. Amma nə olursa-olsun, hətta ölkəmiz əleyhinə hansısa bir sənəd qəbul edilsə belə, bu, bizim siyasətimizə təsir etməyəcək. Ona qalsa, beynəlxalq məhkəmədən guya Laçın dəhlizinin açıq olması ilə bağlı bunlar bir qərar qoparıblar. Lakin bu da bizim mövqeyimizə təsir etmir. Çünki obyektiv olaraq hər bir ölkənin sərhədi olduğu kimi Azərbaycan da öz sərhədini müəyyənləşdirir. Ona görə də AŞ PA-da istənilən qərar Azərbaycanın siyasətinə təsir etməyəcək. Bizim Qarabağ siyasətimiz dəyişməyəcək. Ona qalsa, illər öncə AŞ PA-da Ermənistanı təqid edən sənəd qəbul olundu. Qarabağın işğaldan azad olunması, Sərsəng Su Anbarının azad olunması ilə bağlı sənəd qəbul edildi. Hansı biri yerinə yetirildi? Ermənistan hər birini qulaqardına vurdu. Ermənistan ən mühüm təşkilat olan Birləşmiş Millət Təşkilatının dörd qətnaməsini 28 il yerinə yetirmədi. Heç kim də ona heç bir söz demədi. Belə olan halda Azərbaycan öz haqlı siyasətini kiminsə sözü ilə dinləməli, yaxud da kiminsə qətnaməsini yerinə yetirməlidir? Əlbəttə, beynəlxalq təşkilatlarda öz sözümüzü deməli, mübarizəmizi aparmalıyıq. Azərbaycan əleyhinə qəbul edilən hər hansı bir qətnamə o demək deyil ki, biz o qətnaməni yerinə yetirməliyik".

**❑ Cavanşir ABBASLI
"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 107 (8243) 21 iyun 2023

# Zəngəzur dəhlizi uğrunda Donbas kimi mübarizə

## Rusiya özü dəhlizə nəzarət etmək iddiasındadır, lakin ABŞ, İran və Fransanın mövqeyi fərqlidir - Qərb beynəlxalq qaydalar əsasında burada keçid-gömrük nəzarətinin təşkilini istəyir

**"Bir neçə gün əvvəl Rusiya hakimiyyəti Sünikə (Zəngəzur) böyük bir nümayəndə heyəti göndərib. Burada "Rusiya günü"nə həsr olunmuş tədbirlər keçirilib. Tədbirlərdə Rusiya Prezident Administrasiyasının, Moskva hökumətinin, Rusiyanın Ermənistandakı səfirliyinin yüksək rütbəli diplomatları, həmçinin regional hökumətin nümayəndələri iştirak ediblər. Xüsusilə Vladimir Putinin ofisinin regionlararası və xarici ölkələrlə mədəni əlaqələr şöbəsinin müdiri İqor Maslovun da Sünikdə olması diqqəti cəlb edir".**




"Yeni Müsavat" bildirir ki, bunu "Hraparak" nəşri yazıb. "Sünikdəki mənbələrimiz əmindir ki, Rusiya hakimiyyətinin bu fəallaşması əslində xüsusilə müharibədən sonra Süniki diqqətdə saxlayan, milyonlarla qrant verən, layihələr həyata keçirən Avropa İttifaqı faktoru ilə bağlıdır. İlin əvvəlində məlum olub ki, Sünik vilayətinin yaşayış məntəqələrinin infrastrukturunun inkişafı üçün bir il müddətinə Avropa İttifaqından 116 milyon avroluq dəstək veriləcək. Rusiya tərəfi əslində regionun özünə sərmayə yatırmaq qərarına gəlib", - deyə nəşr əlavə edib.

Qeyd edək ki, yaxın günlərdə Zəngəzurda - Qafan şəhərində Rusiya konsulluğunun açılması planlaşdırılır. Bundan əvvəl isə Qafanda İran konsulluğu açılıb. Erməni mediası ötən həftə Bakıya səfər edən Rusiya prezidentinin nəqliyyat və logistika üzrə köməkçisi İqor Levitinin Bakıya səfəri və Prezident İlham Əliyevlə görüşünə də diqqət yönəldib. Görüşdə "Rusiyanın Zəngəzur dəhlizinin potensialından istifadə imkanlarının öyrənilməsi ilə bağlı məsələlərin" müzakirə olunması ermənilərı ciddi narahat edib.

Göründüyü kimi, bu yol üzərində nəzarət üstündə ciddi rəqabət var. Rusiya özü dəhlizə nəzarət etmək istəyir, lakin ABŞ, İran və Fransa məsələyə fərqli baxır. Üçtərəfli bəyanata əsasən, dəhlizə Rusiyanın Federal Təhlükəsizlik Xidməti nəzarət etməlidir. Üstəgəl, dəmir yolu tikintisini də Rusiya Dəmir Yolları həyata keçirməlidir. Bu isə Qərbi qane etmir. Qərb beynəlxalq kontingentin dəhlizə nəzarət etməsini, beynəlxalq qaydalar əsasında burada keçid, gömrük nəzarəti və sair xidmətlərin təşkilini istəyir. Sözügedən qarşıdurma Ermənistanın daxilinə də sirayət edib. Bəs bu mübarizə nə ilə nəticələnə bilər? Ümumilikdə bu prosesin Azərbaycana ziyanı və faydaları nədən ibarətdir?

**Deputat, Təhlükəsizlik, müdafiə və korrupsiyaya qarşı mübarizə komitəsinin üzvü Arzu Nağıyev** "Yeni Müsavat"a bildirdi ki, regionda Qərbin və regionun nüfuz davası artmaqdadır və Zəngəzur dəhlizi də çox mühüm elementlərdən biridir: "Moskva bu gün çətinliklər içindədir və Avropa istiqamətində Rusiya yük daşınmanın ağırlaşması fonunda malların tədarükü üçün yeni etibarlı kanallarda maraqlıdır. Zəngəzur dəhlizinin açılmasının vacibliyi , dünya iqtisadiyyatının artan böhranı, xammalın qiymətlərinin qalxması və nəqliyyat problemlərinin olması fonunda xüsusi əhəmiyyət kəsb edir. Hər bir ölkə, əsasən də Rusiya öz mallarının ixracını artırmaq üçün yeni nəqliyyat marşrutları tapmağa çalışırlar. Cənubi Qafqaz regionu bu gün çox maraq doğuran bir bölgədir və Zəngəzur dəhlizinin transsərhəd ticarət kanallarının bir hissəsinə çevrilə biləcəyi və Türkiyəyə ixracı artırmaqda maraqlı olan Rusiya da daxil olmaqla, böyük dövlətləri cəlb edir. Təbii ki, İrəvan da dəhlizin açılmasında çox maraqlı olmalıdır". **A.Nağıyev qeyd etdi ki, bunu ən yüksək səviyyədə Rusiya rəhbərliyi də təsdiq edir və Ermənistana tövsiyələr verir**: "Ən mühüm məsələlərdən biri də Rusiya-Ukrayna müharibəsi fonunda Rusiyadan Avropaya yüklərin daşınması olduqca çətindir və ya bloklanır. Bu vəziyyətdə həm Rusiya təchizatçıları, həm də Rusiya vasitəsilə Avropa bazarlarına mal daşıyanlar yeni etibarlı təchizat kanallarına ciddi ehtiyac duyurlar. Beləliklə, Zəngəzur dəhlizi ən mühüm bir yola çevrilir və Türkiyəyə yaxın və ucuz yoldur. Rusiyanın hətta həddən artıq yüklənmiş Gürcüstan Hərbi Magistralının qeyri-sabitliyi, xüsusilə qışda, Rusiya üçün Gürcüstan, Ermənistan və Türkiyəyə qurudan yüklərin nəqli üçün böyük problem yaradır. Buna görə də yaranmış vəziyyətdə Rusiya Gürcüstan yolu ilə deyil, məhz Türkiyəyə və ya Ermənistana, Avropaya daşınmanı Zəngəzur dəhlizi də daxil olmaqla, Azərbaycan üzərindən həyata keçirməyə çalışır". **Deputat qeyd etdi ki, Ermənistan da burada maraqlı tərəfdir**: "Lakin Qərbin Rusiyanı regiondan çıxarma cəhdini məhz Ermənistan vasitəsilə həyata keçirmək istəyi işləri ləngidir. Azərbaycan öz vacibliyini dərk edir və əvvəl-axır dəhlizin nəyin bahasına olur-olsun açılacağına əmindir və buna görə də öz üzərinə düşən bütün işləri layiqincə yerinə yetirir. İndi Rusiyanın ən ciddi qərarlar qəbul etməsinin vaxtıdır..."

**Sosial Tədqiqatlar Mərkəzinin icraçı direktoru Sahib Məmmədov öncə xatırlatdı ki, Ermənistan tərəfindən münaqişədən əvvəl mövcud olmuş dəmir yolunun yenidən tikilməsi, həmçinin avtomobil yolunun tikilməsi üçün heç bir hazırlıq işləri belə, həyata keçirilməyib:** "Əslində Azərbaycan tərəfi üçün kommunikasiyanın Ermənistan ya Rusiya tərəfindən tikilməsi, fikrimcə, aktual deyil. Üçtərəfli bəyanatın 9-cu bəndinə görə, "vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir". Bu, o deməkdir ki, kommunikasiyanın kimə məxsus olmasından asılı olmayaraq, Azərbaycandan onun digər ərazisi olan Naxçıvana yüklər sərhəd və gömrük yoxlaması olmadan keçib getməlidir və bəyanata görə, nəzarəti Rusiya Federal Təhlükəsizlik Xidmətinin sərhəd qoşunları həyata keçirəcək. Yeni kommunikasiya vasitələrinin inşası tərəflərin qarşılıqlı razılığı əsasında olmalıdır. Əgər kommunikasiyanın inşasını Rusiya və ya Ermənistanın özü həyata keçirəcəksə, bununla bağlı tərəflər razılığa gəlməlidir. Təəssüf ki, Ermənistandakı daxili qüvvələr, hansılar ki, əsasən xarici ölkələrə və kənar qüvvələrə bağlıdır, kommunikasiyaların açılmasına mane olurlar". **S.Məmmədov əlavə etdi ki, nə Qərb, nə Rusiya Azərbaycanla Ermənistanın münasibətlərinin ikitərəfli razılaşmalar əsasında tənzimlənməsində maraqlı görünmürlər**: "Həmçinin Qərb dövlətləri Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılmasında əsas vasitəçinin Rusiya olmasını istəmir. Rusiya isə regiona Qərbin hər hansı müdaxiləsinə qısqanclıqla yanaşır. İran İslam Respublikası da kommunikasiyaların bərpası və inşasında nəinki maraqlı deyil, əksinə, bütün resursları ilə buna mane olmağa çalışır. Ermənilərin "Sünik" adlandırdığı Qərbi Zəngəzurda həm İranın, həm Qərbin, həm də Rusiyanın fəallıqları da bununla bağlıdır". **STM-in icraçı direktoru qeyd etdi ki, İran kommunikasiyanın bərpasını ümumiyyətlə istəmir:** "Üstəlik, Rusiya hesab edir ki, kommunikasiyalar bərpa olunsa da, ona tam nəzarət onda olmalıdır. Qərb isə kommunikasiyaların bərpasını istəsə də, onun Rusiyanın nəzarətində olmasını istəmir. Ermənistanın özü isə söz manipulyasiyası ilə məşğuldur. Kommunikasiyanın bərpası - inşası halında onun üzərində tam suverenlik, yeni sərhəd-keçid məntəqəsi, gömrük nəzarətini təmin etmək istəyir. Bu isə Azərbaycan üçün qəbul olunan deyil və üçtərəfli bəyanatın 9-cu bəndinin şərtlərinə, yəni "vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətin təmin olunmasına dair öhdəliyə ziddir".

**Sosial Tədqiqatlar Mərkəzinin sektor müdiri, politoloq İlyas Hüseynov isə bildirdi ki, kommunikasiyalar üzərində mübarizə əsrlərlə davam edib:** "Nəqliyyat və ticarət yolları üzərində müharibələr bu günün fenomeni deyil. Lakin Vətən müharibəsindən sonra regionda kommunikasiya xətlərinin açılması və iqtisadi əlaqələrin bərpa olunması uğrunda amansız mübarizə gedir. Hazırda Rusiya-Ukrayna müharibəsi fonunda Cənubi Qafqazda diplomatik savaş gedir. Bu savaşda nəqliyyat bağlantıları xüsusi diqqət çəkir. Əslində Avropa İttifaqının və ümumilikdə Qərbin geosiyasi mübarizəyə qoşulması Rusiyanın Cənubi Qafqazda dominantlığının azalmasına və məhvinə yönəlib. Əgər dünyada Rusiyaya qarşı qlobal savaş açılıbsa və sanksiyalar tətbiq olunursa, onda Kreml niyə ticarət yollarının üzərində olmalıdır?" **İ.Hüseynov bildirdi ki, Qərbi əsas düşündürən mövzu budur:** "Qlobal müharibə başlayanda ilk şərhlərimiz bundan ibarət idi ki, Rusiya Zəngəzur dəhlizin açılmasını sürətləndirəcək. Elə indi də Ermənistan-Azərbaycan münasibətlərinin nizamlanmasında Rusiyanın əsas məqsədi nəqliyyat əlaqəsinin formalaşmasıdır". Politoloq hesab edir ki, Zəngəzur dəhlizi artıq "Qordi düyününə" çevrilib: "Aleksey Overçuk artıq regiona mütəmadi səfərlər edir, müsbət mesajlar verilir. Amma nəticəni görmürük. Qafan bölgəsində Rusiyanın İranla yanaşı konsulluq açmaq niyyətləri, Qərbi Zəngəzurda "Rusiya günü"nün hay-küylə keçirilməsi də Rusiyanın Ermənistanda ağalığının nümayişinə yönəlib. Amma İrəvanın siyasi elitası təlimatları çoxdan başqa mərkəzdən alır".

❑ **E.PAŞASOY,**
**"Yeni Müsavat"**

# Əli Kərimli diktaturası - AXCP-dən istefanın şok səbəbi

## Partiya sədri Vahid Məhərrəmlinin peşəkar fəaliyyətini nəzarətdə saxlamağa, diktə etməyə cəhd göstərirmiş

**Qurultaya hazırlaşan AXCP daxilində münasibətlər yenidən gərginləşib. Vəziyyət o həddə çatıb ki, tanınmış iqtisadçı, kənd təsərrüfatı üzrə ekspert Vahid Məhərrəmli partiyadan və Milli Şuradan istefa verib. Cebhe.info-nun yazdığına görə, təkcə partiya daxilindəki vəzifəsindən yox, ümumilikdə üzvlükdən imtina edən Vahid Məhərrəmlinin qurultaydan öncə bu addımı atmasının səbəbləri partiya daxilində uzun illərdən bəri gərgin münasibətlərin, fikir ayrılığının pik həddə çatmasıdır.**

Sədr Əli Kərimlinin partiya daxilində idarəetmədə diktator kimi davranması AXCP-ni ötən müddət ərzində böyük parçalanmalarla üz-üzə qoyub. Hazırda Əli Kərimlinin ətrafında siyasi fəaliyyəti ilə tanınmış kimsə qalmayıb. Milli hərəkatın üzvü olaraq da sonra fəaliyyətini AXCP-də davam etdirən nüfuzlu şəxslərdən kimsə Əli Kərimlinin yanında deyil. Çünki Kərimlinin partiya daxilindəki avtoritarizmi, müxalifətin məğlub duruma salınmasındakı birbaşa və maraqlı rolu özünü hərəkata həsr edənlərin AXCP-dən uzaqlaşmasına səbəb olub və indi bu siyahıya daha biri əlavə olundu.

Vahid Məhərrəmlinin Əli Kərimlinin partiyanı idarəetmə qaydalarından narazı olduğu bəlli idi. Hətta məlumata görə, Əli Kərimli V.Məhərrəmlinin təkcə siyasi fəaliyyətini yox (zatən bu, özünü o qədər də büruzə vermirdi), həm də peşəkar fəaliyyətini nəzarətdə saxlamağa, diktə etməyə cəhd göstərirdi. Məsələn, digər partiya üzvləri və rəhbərlikdə təmsil olunan şəxslər kimi, V.Məhərrəmli də hətta mətbuata açıqlamalarını əvvəlcə Əli Kərimli ilə razılaşdırmalı idi.

Yəni kənd təsərrüfatı eksperti olan V.Məhərrəmli bu sahədə danışmaq üçün bu sahədən heç bir məlumatı olmayan Əli Kərimlidən icazə almalı idi və təbii ki, Əli Kərimli bu razılığı öz maraqlarına uyğun verirdi.

Bundan başqa, V.Məhərrəmlinin Fuad Qəhrəmanlı, Təzəxan Mirələmli, Məmməd İbrahimlə də problemləri olub. Məlumata görə, V.Məhərrəmli növbəti qurultayda İdarə Heyətinə üzv seçilə bilməyəcəyini görüb və öncədən üzvlükdən gedib. Başqa sözlə, Əli Kərimlinin partiyanı daxildən dağıtmağa yönəlik fəaliyyəti öz "bəhrəsini" verib. Əli Kərimli hələlik bu istefaya səssiz qalır, bu da onun məsələni sanki partiya və özü üçün önəmsizləşirmək cəhdidir.

"Nədən heç bir tanınmış sima AXCP-də qalmır? Gələcəyə inam yoxdur, yoxsa Əli Kərimli ilə şəxsi problemləri yaranır?" sualı Vahid Məhərrəmlinin istefasından sonra yenidən aktuallaşıb.



**BAXCP sədrinin müavini Niyaməddin Orduxanlı "Yeni Müsavat"a bildirdi ki, sualın cavabı artıq illərdir aydındır**: "Əli Kərimlinin apardığı yanlış xətt, həm gələcəyə inamı sarsıdıb, həm də təşkilatdakı insanları bezdirib. Əli Kərimli elə bir tipdir ki, onunla uzun müddət birgə yol getmək olmur. Hər kəsi, istənilən şəxsi, dost dediyi insanları, tələbə yoldaşlarını, hətta yaxın qohumluq əlaqəsi olan insanları öz şəxsi maraqlarına qurban verməyi bacarır. Dediklərimi Kərimli illərdir öz fəaliyyəti ilə sübuta yetirib. Çox yaxın tarixə nəzər yetirin. Milli azadlıq hərəkatının lideri, AXCP sədri Əbülfəz Elçibəy həm hakimiyyətdə olanda, həm də sonra Əli Kərimliyə çox yüksək etimad göstərmişdi. Əli Kərimlini həm hakimiyyətdə, həm də partiyada çox yüksək postla təmin etmişdi. Lakin Əli Kərimli ona böyük etimad göstərmiş , ən yüksək vəzifəyə təyin etmiş, partiyada müavini statusuna qaldırmış Əbülfəz Elçibəyə xəyanət etdi. Hakimiyyətlə gizli danışıqlara gedərək Elçibəyə qarşı partiya daxilində, mətbuatda ən çirkin oyunlar qurdu, yazılar yazdırdı. Əbülfəz Elçibəy dünyasını dəyişən ərəfələrdə "Məkan" qəzetində başqa imza ilə Elçibəy haqqında ən iyrənc yazı yazdırdı. Bütün bunları özümdən uydurmuram, bunlar tarixi həqiqətdir. Baxın, Əbülfəz Elçibəy dünyasını dəyişəndən sonra partiyanın 19 nəfərlik Rəyasət Heyətinin üzvlərindən bir nəfər də olsun Əli Kərimlinin yanında qalmadı. Səbəb də Əli Kərimlinin avtoritar düşüncəsi, pula olan sevgisi və Elçibəyə xəyanəti idi. Məhz Əli Kərimli öz şəxsi maraqları üçün uzun illər ərzində onlarla gəncin həyatını məhv elədi, həbsxanalarda çürüməsinə səbəb oldu. Jurnalist kimi araşdırma apara bilərsiniz. Əli Kərimlinin hakimiyyətlə gizli əməkdaşlıq etməsi ilə bağlı həm Elçibəyin müavini olmuş Böyük Quruluş Partiyasının sədri, millət vəkili Fazil Mustafa, həm də hakimiyyətin ən yüksək elitasında təmsil olunan şəxslər zamanında açıqlamalar veriblər. İndi isə Əli Kərimli yanında qalan 3-4 təcrübəsiz, məlumatsız adamı yanında saxlaya bilmir. Çünki xarakteri buna imkan vermir. Təşkilatdan istefalar təbiidir və digər tək-tük qalanlar da istefa verəcəklər".

❑ **Etibar SEYİDAĞA**
**"Yeni Müsavat"**

# Doqquz saatlıq müzakirənin yekunu - İrəvan o sənədi imzalayacaqmı?

## Nəqliyyat kommunikasiyalarının açılması razılaşdırılıb, qalır Ermənistanın...

**Rusiya, Ermənistan və Azərbaycan baş nazirlərinin müavinləri səviyyəsində 9 saat davam edən danışıqlarda nəqliyyat kommunikasiyalarının açılması nəhayət ki, razılaşdırıldı. "Biz Azərbaycan, Ermənistan və Rusiya Federasiyası baş nazir müavinlərindən ibarət üçtərəfli işçi qrupu formatında görüş keçirdik və nəticədə hərtərəfli sənəd formalaşdırıldı".**



"Yeni Müsavat" yada salır ki, Rusiya baş nazirinin müavini Aleksey Overçuk belə deyib. O əlavə edib: "Həmin sənəd bəyan edir ki, regionda nəqliyyat əlaqələrinin açılması Yerasx (Arazdəyən) - Culfa-Meğri-Horadiz marşrutu ilə uzanan dəmir yolunun bərpası ilə başlayacaq və tərəflərin suverenliyinə hörmət əsasında əsas Azərbaycanla Ermənistan sərhədlərindən keçid yanaşmalarını müəyyənləşdirir. Tərəflərdən heç biri bu yolun ayrı-ayrı hissələrinin onların yurisdiksiyasında olmasını şübhəyə almır".

Rusiya rəsmisinin sözlərinə görə, beləliklə, yola münasibətdə Azərbaycanda Azərbaycan qanunvericiliyi, Ermənistanda isə Ermənistan qanunvericiliyi tətbiq olunacaq. "Yaxın tarix boyu Ermənistanla Azərbaycan arasında heç bir əlaqə olmayıb, Rusiya Prezidenti Putinin birbaşa iştirakı ilə dayandırılmış müharibə olub. Lakin iki ölkə sərhədində hələ də silahlı toqquşmalar baş verir və insanlar ölür. Əlbəttə, vəzifədaşlarım üçün belə bir şəraitdə işləmək çox çətindir, lakin onlar dövlət rəhbərlərinin inkişaf etdirməyi bizə həvalə etdiyi qərara görə öz tarixi məsuliyyətlərini hiss və kommunikasiyaların blokadadan çıxarılması istiqamətində işləri davam etdirirlər".

Overçukun açıqlaması Azərbaycan ekspertlərində haqlı suallar yaradıb. Məsələn, Ermənistandan sərhəd və gömrük xidmətinə erməni sərhədçiləri və gömrükçüləri, yoxsa Rusiya nəzarət edəcək? Daha bir maraqlı məqam: Azərbaycan və Ermənistan Ümumdünya Gömrük Təşkilatının dəstəyindən yararlanacaqmı? Yada salaq ki, Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanın Baş naziri Nikol Paşinyan arasında mayın 14-də Brüsseldə keçirilən görüşdə Ümumdünya Gömrük Təşkilatının imkanlarından istifadə edilməsi barədə şifahi razılıq əldə edilib. Bu barədə görüşdən sonra Avropa Birliyi Şurasının rəhbəri Şarl Mişelin açıqlaması olmuşdu. Amma Overçuk açıqlamasında Ümumdünya Gömrük Təşkilatının adını çəkməyib. Belə anlaşılır ki, Moskva bu təşkilatın Ermənistanla Azərbaycan arasında gömrük fəaliyyəti göstərməsinin əleyhinədir, özünü bu rolda görür.

**Deputat Elman Nəsirov "Yeni Müsavat"a qeyd etdi ki, Ermənistanla Azərbaycan arasında prioritet məsələ sülh müqaviləsinin imzalanmasıdır:** "Amma buna qədər iki vacib addım var - sərhədlərin delimitasiya və demarkasiyası, ikincisi isə nəqliyyat kommunikasiyalarının açılmasıdır. İrəvan cidd-cəhdlə çalışır ki, ikinci razılaşmanın icrası yubansın. Ancaq 9 saatlıq görüşün müsbət nəticələndiyi haqda fikirlər var. Əsas hədəflərdən biri isə Zəngəzur dəhlizinin açılmasıdır. Bu dəhlizin açılmasına mane olan iki qüvvənin adı çəkilir - Ermənistan və İran. Hətta İranın adı tək çəkilir. Türkiyə Prezidenti cənab Ərdoğan da açıq şəkildə bəyan etdi ki, Tehran buna qarşı çıxır. Artıq Ermənistan xarici işlər naziri Ararat Mirzoyan dəhlizin işə düşməsinin əhəmiyyətini dilə gətirir. Bütün hallarda tarixin inkişaf mərhələsi var və bunun qarşısını almaq mümkün olmayacaq".

**Deputatın sözlərinə görə, Ermənistan vurnuxur, bu regionda lokomotiv Azərbaycandır və İrəvanın "qatarın sonuncu vaqonuna minmək" şansı var:** "Prezident İlham Əliyev söylədi ki, Ermənistan istəsə də, istəməsə də bu dəhliz açılacaq. Paşinyan da Qarabağın Azərbaycan ərazisi olduğunu təsdiqləyir və bu proseslərin inkişaf dövründə Zəngəzur dəhlizinin açılması qaçılmazdır. 10 noyabr sənədinə əsasən, Rusiya FTX-sinin erməni tərəfdən yola nəzarət etməsi nəzərdə tutulub, hələlik bu anlaşmada dəyişiklik olmayıb, amma yola Ermənistan tərəfdən kimin kontrol edəcəyi Rusiya ilə Ermənistan arasında müzakirə edilə bilər, bizim üçün əsas yolun işə düşməsidir".

❑ **Emil SALAMOĞLU**
**"Yeni Müsavat"**

# "Qozbel Paris"in Bakıya qarşı artan qərəzi

## Fransa bəyanatlardan nəticə çıxarmırsa, diplomatik cəbhədə nələr etmək olar?

**Fransa açıq formada Ermənistanın destruktiv fəaliyyətini dəstəkləyir. Bunu son bir neçə gündə Fransa rəsmilərinin səsləndirdiyi bəyanatlar da təsdiq edir. Belə ki, bu ölkənin xarici işlər naziri Ketrin Kolonna Avropa Parlamentində "Ermənistanla Azərbaycan arasında münasibətlər və Dağlıq Qarabağdakı vəziyyət və Laçın dəhlizi" mövzusunda müzakirələr zamanı deyib ki, biz ədalətli sülhə nail olmaq üçün Ermənistanın yanındayıq: "Laçın dəhlizinin blokadası qanunsuzdur və bununla bağlı Beynəlxalq Məhkəmə belə bir hökm çıxarıb. Heç bir ölkə Ermənistanın ədalətli sülh əldə etməsi üçün Fransa qədər səy göstərmir. Biz qonşusu (Azərbaycan) ilə ədalətli sülh əldə etmək üçün Ermənistanın yanındayıq. Heç bir ölkə iki ölkəyə bu məsələdə bizim qədər dəstək vermir. Biz ədalətli sülhə nail olmaq üçün Ermənistanın yanındayıq, bunu prezident Emmanuel Makronun göstərdiyi səylər sübut edir".**

Gərginliyin azaldılması vasitəsi kimi Kolonna Ermənistanda fəaliyyət göstərən Aİ missiyasını qeyd edib ki, bu missiya əsasən Fransanın səyləri ilə yaradılıb və "deskalasiya üçün çox əlverişlidir".

Fransanın Avropa və Xarici İşlər Nazirliyinin mətbuat katibi tərəfindən Azərbaycan-Ermənistan sərhəd bölgəsində baş vermiş təxribatlarla əlaqədar bəyanat bölgədəki mövcud vəziyyəti təhrif edir və qərəzlidir.

Bunu **Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə** Fransanın Avropa və Xarici İşlər Nazirliyinin mətbuat katibi Ann-Kler Lejandrın bəyanatını şərh edərkən deyib.

Onun sözlərinə görə, Fransa tərəfinə xatırlatmaq istərdik ki, Azərbaycan beynəlxalq norma və qaydalara uyğun olaraq təsis etdiyi Laçın dövlət sərhədinin buraxılış məntəqəsindən hər iki istiqamətə yüzlərlə erməni sakininin tənzimlənən şəkildə, sərbəst və təhlükəsiz hərəkətini təmin edib. Bu səylərə baxmayaraq, 15 iyun tarixində məhz Ermənistan tərəfindən sərhəd keçid məntəqəsinin atəşə tutulması nəticəsində sərhədçimiz yaralanıb. Hazırda sərhəddən keçid üzrə təhlükəsizlik və istintaq tədbirləri həyata keçirilir.

"Ermənistan tərəfindən Laçında qeyd edilən təxribata və digər istiqamətlərdə ərazilərimizin atəşə tutulmasına baxmayaraq, Fransa tərəfinin məsələyə birtərəfli yanaşması təəssüf doğurur", - deyə bəyanatda bildirilir. Bu arada məlum olub ki, Fransanın müdafiə naziri Sebastyan Lekornunun dəvəti ilə Ermənistanın müdafiə naziri Suren Papikyan iyunun 19-da "Le Burje" aviasiya sərgisində iştirak edib.

Aprel ayında fransalı nazir Katrin Kolonnanın Bakı səfəri rəsmi Parisin ermənipərəst siyasətində korrektələr aparacağı ümidi yaratmışdı. Amma göründüyü kimi, Makron hökuməti klassik ermənipərəst siyasətindən əl çəkməyib. Yəni Paris yenə də Azərbaycanla bağlı qərəzini davam etdirir. Bəs Fransaya necə dərs verməli, bəyanatlardan nəticə çıxarılmırsa, diplomatik cəbhədə nələr etmək olar?

**Deputat Bəhruz Məhərrəmov belə çıxışların Fransanı ancaq və ancaq bu bölgədən uzaqlaşdırdığını düşünür. Onun fikrincə, əslində ermənilər də Fransanın qurbanına çevriliblər**: "30 illik münaqişə dövründə sülh prosesi üzrə vasitəçilərdən biri kimi Fransa kosmetik də olsa tərəfsiz və qərəzsizlik imitasiyası etməyə çalışırdı. Vətən müharibəsində Azərbaycanın qələbəsindən sonra isə Paris artıq açıq və radikal formada Ermənistanın yanında yer almağa başladı. Bu isə 44 günlük savaşla bölgədə yaranan yeni reallıq, sülh və əməkdaşlıq perspektivlərində ciddi əngələ çevrildi. Azərbaycan və Ermənistan arasında məhz cənab İlham Əliyevin məcburetmə tədbirləri ilə yekun sülhə yaxınlaşdıqca Fransa mümkün qədər prosesi pozmaqla məhz münaqişənin yenidən alovlanmasında maraqlı olduğunu göstərdi. Məhz bu dağıdıcı fəaliyyətin qarşısının alınması üçün cənab İlham Əliyev Parisi faktiki olaraq regiondan çıxardı. Bu, Makron iqtidarının Qafqazda ən ciddi məğlubiyyəti idi və Fransa yenidən regionda mövcud olmaq və neoimperialist niyyətləri naminə hər vəchlə münaqişənin yenidən alovlanması üçün cəhdlərini intensivləşdirdi. Lakin istər qlobal təsisatlar çərçivəsində, istərsə də lokal təxribatlarla müşahidə olunan bu cəhdlərin hamısında Fransa beynəlxalq müstəvidə, Paris üçün alətə çevrilmiş İrəvan isə regionda qarşıdurmalarda məğlub olaraq bir az daha çox uçuruma yuvarlandılar. Lakin təəssüf ki, Fransa dayanmaq istəmir və erməni xalqı da Parisin niyyətlərinin qurbanına çevrilməkdədir. Xüsusən Brüssel prosesi bərpa olunduqdan, Moskva və Kişinyov təmaslarından sonra yaranan ümidlər fonunda son bir həftədə Fransanın yenidən aktivləşməsinə şahidlik edirik. Məhz Fransanın təşəbbüsü ilə Avropa Parlamentində "Ermənistanla Azərbaycan arasında münasibətlər və Dağlıq Qarabağdakı vəziyyət və Laçın dəhlizi" mövzusunda müzakirələrin baş tutması, bu müzakirələrin bölgədə sülh və sabitliyə xidmət deyil, Azərbaycan əleyhinə kampaniya xarakteri daşıması, bölgənin özündə situasiyanın mürəkkəbləşməsi və Ermənistanın və separatçıların hərbi fəallığına, təxribatların intensivləşməsinə gətirib çıxardı. Təbii ki, bütün hallarda düşmən lazımi cavabını aldı, lakin proseslər həm də göstərdi ki, Fransa Bakı ilə, daha konkret desək, cənab İlham Əliyevlə hesablaşmayana qədər bölgədə maraqlarını təmin edə bilməyəcək. Regionda Ermənistanın simasında daimi "əl buyruqçusuna" adət etmiş Fransanın bunu qəbullanması asan olmasa da Fransa xarici işlər naziri Ketrin Kolonnanın Avroparlamentdə qəzəbli çıxışı və açıq formada kini göstərir ki, Paris artıq regionda vəziyyətin ciddiliyinin fərqindədir. Lakin fransızlar hələ ki geriyə addım atmaq istəmirlər və maraqlıdır ki, xanım Kolonnanın bu çıxışı fonunda proseslər Fransanı bölgədən daha da uzaqlaşdırır. Məsələn, əgər əvvəllər Fransanın qərəzli olduğunu biz baş verən faktlar əsasında iddia edirdiksə, artıq Fransa xarici işlər naziri özü gizlətmir ki, "Biz Ermənistanın yanındayıq".



Kolonnanın hücum arqumentləri isə çürümüş idi və Azərbaycan Xarici İşlər Nazirliyinin bəyanatlarında istər Laçın dəhlizi, istər sərhəd-keçid məntəqəsi, istər "blokada" kimi iddiaların absurd olduğu aydın şəkildə izah edildi.

Bu gün Fransa regionda məğlubdur, mövcud ritorika ilə isə hər hansı formada Cənubi Qafqazda maraqlarını təmin etməsi mümkün deyil. Bu mənada Bakının açıq anti-Azərbaycan mövqeyi tutmuş Fransaya qarşı hansısa əlavə və əlahiddə addım atmasına ehtiyac yoxdur. Çünki regionda Fransanın maraqlarına Makronun komandasından daha çox heç kim zərər vura bilməz. Heç şübhəsiz ki, yaxın gələcəkdə Ermənistan və Fransanın təşviqi ilə boş xülyalar uğrunda itkilər verən erməni xalqı da bu reallığın, nəhayət ki, fərqinə varacaq".

**Beynəlxalq əlaqələr üzrə ekspert Elşən Mustafayev Azərbaycanla Ermənistan arasında sülhün olmasını istəməyənlərin saylarının kifayət qədər çox olduğunu bildirdi. Onun sözlərinə görə, bu sırada ilk sıralarda qərarlaşan ölkələrdən biri də Fransadır:** "Son aylarda Azərbaycanın sülh sazişinin imzalanmasına hədəflədiyi siyasəti regionda sabitliyə və beynəlxalq normaların həyata keçməsinə hesablanıb. Belə görünür ki, Ermənistan-Azərbaycan arasında sülhün bağlanmasını istəməyənlərin sayı az deyil. Fransa xarici işlər nazirinin provokasion bəyanatları məhz belə qüvvələrin sifarişi kimi qəbul olunmalıdır. Bu gün Laçında nəzarət-keçid məntəqəsinin qurulmasını blokada kimi qələmə vermək əslində yenidən münaqişə ocağı yaratmağa cəhd kimi qiymətləndirilməlidir. Həmin məntəqədən sənədlərini təqdim etməklə insanlar və bütün növ mülki maşınlar buraxılırsa, hansı blokadadan danışılır. Aparılan təbliğatın əksinə olaraq sərhəd-keçid məntəqəsindən keçən Xankəndidə yaşayan ermənilərin əksəriyyəti bu prosedurları asanlıqla keçdiklərini bildirirlər. Bir müddətdən sonra onların bu şəraitə rahatlıqla uyğunlaşacaqları indidən açıq-aydın göründüyündən gərginlik yaratmağa çalışan güclər fəallaşıblar. Belə güclər Ermənistanın içində olduğu kimi xaricində də kifayət qədərdir. Fransanın isə Makronun liderliyi ilə bu güclərin başında durduğu heç kimə sirr deyil. O səbəbdən Fransa Xarici İşlər Nazirliyinin verdiyi bəyanatlara təəccüb etmək lazım deyil. Eyni zamanda onları maksimum məsafədə saxlamaqla sülh sazişi danışıqlarından kənarda tutmaq lazımdır. Azərbaycan tərəfinin bu cür bəyanatların qarşısını almaq üçün hansı addımlar ata biləcəyinə gəlincə isə, hesab edirəm ki, nə etsək də onların proseslərə bu cür yanaşmalarının qarşısını almaq mümkün deyil. Burada Fransanın regionda maraqlarının artmasını, öz daxilində erməni lobbilərindən asılılıqlarını və.s səbəb kimi göstərmək olar. Bizim hədəfimiz onların bu səpkili bəyanatlarını əhəmiyyətsiz demoqogiyaya çevirmək və dünya dövlətləri tərəfindən ciddi qəbul edilməyən sıradan açıqlamalar kimi qiymətləndirilməsinə çalışmaqdır. Bunun yolu isə apardığımız siyasətin ardıcıl olmasına və bu siyasətin hər iki xalqın mənafeyinə xidmət edəcəyinə ilk növbədə Ermənistanda mövcud olan adekvat düşünən insanları və beynəlxalq təşkilatlar daxil olmaqla digər dövlətləri inandırmaqdan keçir. Hazırda yaranmış situasiya bu perspektivin real olduğunu göstərir".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

# Siyasi partiyalarla bağlı yeni cərimələr

**Azərbaycanda siyasi partiyalarla bağlı maliyyə pozuntularına yol verənlərlə bağlı yeni cərimələr tətbiq olunacaq. Bununla bağlı İnzibati Xətalar Məcəlləsinə dəyişikliklər təklif edilir.**

Dəyişikliklə "Siyasi partiyalar haqqında" Qanunla qadağan olunmuş subyektlərdən, yaxud nağd qaydada (bank hesabına köçürülmədən) və ya xarici valyutada vəsaitin siyasi partiya tərəfindən qəbul edilməsinə görə vəzifəli şəxslər 2 000 manatdan 2 500 manatadək məbləğdə, hüquqi şəxslər 6 000 manatdan 8 000 manatadək məbləğdə cərimə ediləcək.

Siyasi partiya tərəfindən siyasi partiyanın üzvü və ya digər şəxsdən il ərzində "Siyasi partiyalar haqqında" Qanunla müəyyən edilmiş məbləğdən (dəyərdən) artıq üzvlük haqqının və ya ianənin qəbul edilməsinə görə inzibati xətanın bilavasitə obyekti olan artıq qəbul edilmiş üzvlük haqqı və ya ianə müsadirə edilməklə onun məbləğinin (dəyərinin) 80 faizindən 100 faizinədək məbləğdə cərimə olunacaq.

Siyasi partiyanın Azərbaycanın hüdudlarından kənarda istənilən növ (hər növ maliyyə təşkilatları daxil olmaqla) hesab açmasına görə vəzifəli şəxslər 1 500 manatdan 2 000 manatadək məbləğdə, hüquqi şəxslər 4 000 manatdan 5 000 manatadək məbləğdə cərimə ediləcək.

Siyasi partiyanın "Siyasi partiyalar haqqında" Qanunun tələblərini pozmaqla qəbul etdiyi ianəni həmin qanunla müəyyən edilmiş müddətdə geri qaytarmamasına, bu mümkün olmadığı halda isə onu dövlət büdcəsinə köçürməməsinə görə inzibati xətanın bilavasitə obyekti olmuş ianə məbləğinin 60 faizindən 80 faizinədək məbləğdə cərimə olunacaq.



# Konstitusiya Məhkəməsinin hakimləri üçün yaş senzi ləğv olunur

**Konstitusiya Məhkəməsinin hakimlərinə aid yaş senzi ilə bağlı məhdudiyyət ləğv olunur.**

Bu, Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin iyunun 20-də videokonfrans formatında keçirilən iclasında müzakirəyə çıxarılan "Konstitusiya Məhkəməsi haqqında" Qanuna təklif edilən dəyişiklikdə əksini tapıb.

Qüvvədə olan qanuna əsasən, Azərbaycan Respublikası Konstitusiyasının 126-cı maddəsinin I hissəsinə uyğun olaraq yaşı 30-dan aşağı olmayan, seçkilərdə iştirak etmək hüququna malik olan, ali hüquq təhsilli və hüquqşünas ixtisası üzrə 5 ildən artıq işləyən Azərbaycan Respublikasının vətəndaşı Konstitusiya Məhkəməsinin hakimi ola bilər. Layihəyə əsasən, yaş senzi ləğv olunur. Beləliklə, Azərbaycan Respublikası Konstitusiyasının 126-cı maddəsinin I hissəsinə uyğun olaraq seçkilərdə iştirak etmək hüququna malik olan, ali hüquq təhsilli və hüquqşünas ixtisası üzrə 5 ildən artıq işləyən Azərbaycan Respublikasının vətəndaşı Konstitusiya Məhkəməsinin hakimi ola biləcək.

**Azərbaycanın qonşu dövlətlərlə quru sərhədinin açılacağı ilə bağlı məsələ uzun müddətdir müzakirə olunur. Yeni iddialara görə isə sərhədlərin iyulun 1-dən açılacağı gözlənilir. Belə ki, pandemiyanın dünya üzrə bitdiyi açıqlansa da, bu səbəbdən bağlanan sərhədlərimiz hələ açılmayıb.**

# Quru sərhədlərin açılacağı xəbəri bu dəfə gerçəyə oxşayır

## Ehtimal var ki, bu həftə Operativ Qərargah ləğv ediləcək və quru sərhədlərin açılması ilə də bağlı qərar veriləcək

**Milli Məclisin deputatı Vahid Əhmədov Ölkə.az-a açıqlamasında bildirib ki, sərhədlərin açılması çox vacibdir**: "Əhalinin gediş-gəlişi ilə bağlı çox ciddi problemlər yaşanır. Lakin hökuməti də başa düşmək lazımdır. Bölgədə, qonşu dövlətlərdə yaşananlar, onlarla sərhəddə baş verən ciddi problemlər bunu deməyə əsas verir. Lakin heç olmazsa, Gürcüstanla sərhədi aça, burada xüsusi nəzarət sistemini və yoxlamanı gücləndirə bilərik. Yəni insanlar vacib işlərində gedib-gəlmək imkanına malik olsunlar".




**Deputat onlara da çoxlu müraciətlərin daxil olduğunu deyib:** "Rusiyadakı problemlər fonunda orada yaşayan həmvətənlərimiz gəlmək, ailələri ilə görüşmək istəyirlər. Onların hər birinin hava yolu ilə gəlmək imkanı yoxdur. Ona görə də sərhədlərin açılması çox vacibdir. Bu məsələyə hökumətdə də baxılır. Sərhədlərin mümkün qədər tez açılması həm iqtisadi, həm də sosial baxımdan vacibdir".

"Son günlər Azərbaycan hökumətinin İran vətəndaşlarına sərhəddə (hava limanı və quru sərhədlərdə) viza verilmə prosedurunun ləğv edilməsi, qonşu ölkə vətəndaşlarının ya ASAN VİZA, ya da bizim İrandakı konsulluq vasitəsilə viza alaraq ölkəyə gələ bilməsi quru sərhədlərin açılmasına hazırlıq göstəricisidir" - **iqtisadçı-ekspert Natiq Cəfərli** isə belə deyib. Onun sözlərinə görə, yaxın günlərdə Azərbaycanda nəhayət ki, Operativ Qərargah ləğv ediləcək, bununla bizdə də rəsmi olaraq koronavirus məsələsi tarixə qovuşacaq: "Ehtimal var ki, bu həftə hökumət rəsmən pandemiya ilə bağlı bütün qərarların ləğv edilməsini elan etməklə yanaşı quru sərhədlərin açılması ilə də bağlı qərarını verəcək - artıq bu məsələnin rəsmi olaraq pandemiya ilə əlaqələndirilməsi mümkün deyil. Ümid var ki, hökumət insanların çoxdan gözlədiyi və hüquqi olaraq doğru olacaq qərarı bu günlərdə verəcək".

**"Bakı" Hüquq Şirkətinin rəhbəri Natiq Ələsgərov "Yeni Müsavat"a deyib ki, Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) COVID-19 üçün pandemiya statusunu ləğv edib. Bundan sonra quru sərhədlərinin bağlı saxlanılması anlaşılan deyil:** "Aydındır ki, quru sərhədlərin bağlı qalması iqtisadiyyata mənfi təsir göstərir. Azərbaycanda hava nəqliyyatının qonşu ölkələrlə müqayisədə hədsiz baha olması, eyni zamanda quru sərhədlərin bağlı qalması turist axınının qarşısını alır. Pandemiya ilə bağlı tibbi faktor aradan qalxıb. Hökumət pandemiya dönəmində yaranan zərurətdən bu rejimi test etdi. Bu rejim hökumət və onun digər strukturları üçün daha rahat və asan idarəolunan görünür. Amma bu rejim sonsuzadək davam edə bilməz. Azərbaycan dövləti heç bir halda ciddi zərurət olmadığı təqdirdə vətəndaşların sərbəst hərəkətini məhdudlaşdırmamalıdır. Bu, iqtisadi inteqrasiyaya mənfi təsir göstərir, eyni zamanda son 30 ildə sərhəd bölgələrində yaşayan əhalinin də həyat tərzini pisləşdirir. Çünki bu insanların dolanışığı daha çox xırda ticarətdən formalaşırdı. Gündəlik və ya aylıq tələbat mallarını qonşu ölkələrdən - İrandan, Gürcüstandan aşağı qiymətə gətirə bilirdilər. Bu, onların ailə büdcələrini daha səmərəli idarə etməyə imkan yaradırdı. Bütün bu imkanlar son iki ildə məhdudlaşdırıldı. Bu da kifayət qədər ciddi məşğulluq problemi və sosial gərginlik yaradır. Bundan başqa, quru sərhədlərin bağlı olması üzündən ölkəyə turistlərin gəlməsi də əngəllənir. İran, Türkiyə, Rusiya və Gürcüstandan turistlərin Azərbaycana gəlişi çətinləşir. Bu ölkələrin əhalisi Azərbaycan Hava Yollarının təqdim etdiyi bahalı hava nəqliyyatı xidmətlərdən istifadə edə bilmir. Quru sərhəd qadağası Azərbaycan vətəndaşlarının istirahətini, asudə vaxtını normal şəkildə təmin etmək imkanlarını məhdudlaşdırır. Öz tətillərini xarici ölkələrdə keçirmək istəyən insanlar var. Söhbət imkanlı şəxslərdən getmir, əhalinin 5-10 faizi yüksək gəlirli sosial qrupdur. Ümumiyyətlə, bu qrup quru sərhədlər açıq olanda da bu xidmətlərdən istifadə etməyib, bu, yalnız təsadüf hallarda baş verərdi. Quru sərhədlərdən daha çox az gəlirli və kiçik büdcə ilə öz ailəsinin hansısa ehtiyaclarını qarşılamaq istəyən əhalinin 80-90 faizi istifadə edirdi. Bu, böyük bir kəsimi əhatə edir. Artıq bu imkanlar məhdudlaşdırılıb. Nəticədə xarici ölkələrdə tətillərin keçirilməsi əhəmiyyətli səviyyədə bahalaşıb. Hökumət bütün bu məqamları nəzərə alıb quru sərhədləri açmalıdır. Pandemiya 3 aydır ki, bitib!"

**Natiq Ələsgərov deyir ki, quru sərhədlərin açılmamasını təhlükəsizlik məsələləri ilə əlaqələndirmək doğru deyil:** "Əlbəttə ki, hər bir ölkə üçün onun əhalisinin təhlükəsizliyi vacibdir. Təhlükəsizlik olmadığı halda turizmdən də söhbət belə gedə bilməz. Amma bu gün Azərbaycanın hüquq-mühafizə, təhlükəsizlik orqanları 5-10 il öncənin orqanları deyil, inkişaf ediblər. Yəni ölkəyə qarşı hər bir təhdidin qarşısını almaq imkanındadırlar. Onlara verilən istənilən tapşırığı yerinə yetirmək, üzərlərinə düşən vəzifələri layiqli şəkildə həyata keçirmək iqtidarındadırlar. Quru sərhədləri açıq olduğu zamanlarda məgər ölkədə durum nəzarətdən çıxmışdı? Bu baxımdan, quru sərhədlərin bağlı saxlanılmasının təhlükəsizlik məsələləri ilə əlaqələndirilməsi ilə razı deyiləm. Sərhədlər açılmalıdır ki, ölkə iqtisadiyyatı dirçəlsin, müvafiq olaraq ölkə insanı da yaşayışını təmin edə bilsin".

**❑ E.MƏMMƏDƏLİYEV,**
**"Yeni Müsavat"**



# Azərbaycanla sərhəddə ABŞ bayrağı qaldırıldı

**Naxçıvandakı sərhədimizin yaxınlığında, Arazdəyən kəndinin ərazisində tikilən metallurgiya zavodunun qarşısında ABŞ bayrağı asılıb.**

Axar.az xəbər verir ki, bununla bağlı Teleqram kanallarında foto paylaşılıb.

Qeyd edək ki, sözügedən zavodun tikilməsinə ABŞ 70 milyon dollar sərmayə yatırıb. Ermənistan bununla Kərki kəndinin azad olunmasının qarşısını almağa çalışır.

# İcbari tibbi sığorta zərfinə salınmayan xəstəliklər - problem həll olunacaqmı?

## Adil Qeybulla: “İcbari tibbi sığortanın mərhələ-mərhələ tətbiq olunması daha məqsədəuyğun idi…”

**Artıq bir neçə ildir ki, ölkədə tibbi xidmətlər hər kəs üçün əlçatandır. 6 il əvvəl bir neçə rayonda pilot layihə kimi tətbiqinə başlanılan icbari tibbi sığorta 2021-ci ildən bütün ölkə ərazisini əhatə edir.**

Ölkə vətəndaşları icbari tibbi sığorta ilə Xidmətlər Zərfinə daxil olan tibbi xidmətlərdən ödənişsiz istifadə edə bilirlər. “İcbari Tibbi Sığorta Agentliyinin Xidmətlər Zərfi genişdir. Lakin icbari sığorta ilə əhatə olunmayan xəstəliklər var və gələcəkdə bunlar da o zərfə daxil edilməlidir”. Bunu Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov Azərbaycanlı Təbiblərin Simpoziumunun açılış mərasimində deyib. Deputat İcbari Sığorta Zərfinin gələcəkdə bütün xəstəlik və patologiyaları əhatə etməsinə ümid etdiyini qeyd edib.

Yada salaq ki, Əhliman Əmiraslanov ötən il də Milli Məclis kürsüsündən bu məsələlərə toxunmuşdu. O vurğulayıb ki, əhali arasında tələfat verən bir çox xəstəliklər var ki, onlar xidmətlər zərfinə hələ daxil edilməyib. Bu xəstəliklərdən biri də onkoloji xəstəliklərdir. Bu xəstəliyin müayinə və müalicəsi ilə bağlı dövlət proqramı var. Lakin onların adekvat müayinə və müalicəsi üçün bu gün imkanımız yoxdur. Hökmən onkoloji xəstəliklər də icbari tibbi sığorta ilə əhatə olunmalıdır. Ümumiyyətlə, ölkəmizdə bütün xəstəliklər icbari tibbi sığorta ilə əhatə olunmalıdır".

Son dövrlər onkoloji xəstələrin də bununla bağlı müraciətləri çoxalıb. Bu xəstəliyin daşıyıcısı olan bir neçə paytaxt sakini qəzetimizə müraciət edərək bildirir ki, müalicə və müayinələr baha başa gəlir deyə müalicəni yarımçıq saxlamalı olurlar. “Biz də anlayırıq, hər şey bahalaşıb, qiymətlər artdıqca xidmətlərin də qiyməti artır. Vəziyyət əvvəlki kimi deyil. Amma yaxşı olardı ki, bu da icbari tibbi sığortaya şamil edilsin. Baxın, həkim 6 kimya terapiya, 25 şüa təyin edib, kasıb adamam, bunu necə ödəyim?!”, - deyə Aybəniz Əliyeva bizimlə söhbətdə bildirib.

Eyni zamanda son dövrlər insanlarda, xüsusən cavanlarda qəfil ölümlərin sayı çoxalmaqdadır. Həkimlər bildirirlər ki, “check-up” müayinələri də icbari tibbi sığortanın xidmətlər zərfinə daxil olmalıdır. Çünki bu müayinələr baha olduğundan insanlar yoxlamadan keçmirlər. “Qəfil ölümlərin qarşısının alınması üçün insanların vaxtaşırı müayinə olunmaları vacibdir”, - deyə bir çox həkimlər qeyd edirlər.

Ümumiyyətlə, mütəxəssislər hesab edir ki, Xidmətlər Zərfinə ilk növbədə doğuş və təxirəsalınmaz yardımlar daxil edilməlidir. Yəni kəskin cərrahi xəstəliklər, travmalar, qanaxmalar, ürəyin kəskin işemik xəstəlikləri, beyinə qansızma və sair təcili müdaxilə tələb edən xəstəliklər buraya mütləq əlavə olunmalıdır. Hansı xəstəliklər və müayinələr hələ də zərfə daxil deyil, hansısa dəyişikliklər mümkündürmü?

**Yeri gəlmişkən, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin marketinq və tədbirlər şöbəsinin müdiri Pərvin Baxşəliyeva mediaya açıqlamasında bildirib ki, İcbari Tibbi Sığortaya yeni xidmətlər əlavə olunacaq:** “Bu xidmətlərin 2023-cü ilin zərfinə əlavə edilməsi nəzərdə tutulub. Xidmətlər zərfinin genişləndirilməsi vətəndaş müraciəti və statistik göstəricilər əsasında olur. Qeyd olunan xəstəliklərin müayinə və müalicəsi hazırda böyük xərc tələb edir. Xidmətlər zərfinə daxil olduqdan sonra isə ödənişsiz həyata keçiriləcək”. Şöbə müdiri əlavə edib ki, ən çox müraciət olunan xidmətlərdən biri də ekstrakorporal müalicədir. Gələcəkdə onun da icbari tibbi sığortaya əlavə olunacağı gözlənilir.

**Mövzu ilə bağlı tanınmış həkim, professor Adil Qeybulla “Yeni Müsavat”a dedi ki, icbari tibbi sığorta sosial müdafiənin bir növü olaraq Qərb standartlarına uyğun səhiyyə sisteminin ayrılmaz bir formasıdır, bir tibb xidmətidir:** “İcbari tibbi sığortanın əslində Azərbaycanda mərhələ-mərhələ tətbiq olunması daha məqsədəuyğun idi. Sadəcə olaraq, bütün xidmətlərin birdən-birə paketə daxil olması imkan xaricindədir. İlk növbədə doğuş və təxirəsalınmaz yardım - burada qarın boşluğunun kəskin cərrahiyyə xərcləri, kəskin ürək çatışmazlıqları, infarkt, insultlar hamısı salınmalıdır. Hansına ki təcili təxirəsalınmaz yardım tələb olunur, bunlar patologiyalara aiddir. Planlı əməliyyatlar, müxtəlif diaqnostik prosedurların hamısı mərhələli şəkildə bura əlavə oluna bilərdi. Amma indi bu tətbiq olunub, Azərbaycanda ilk təcrübədir. Təbii ki, müəyyən yanlışlıqlar da ola bilər, səhvlər də ola bilər. Amma bütün bunlar aradan qaldırılmalıdır. Tibb xidmətlərinə, xidmət zərfinə diaqnostika, müalicə prosedurlarının daxil edilməsi büdcədən asılıdır. İcbari tibbi sığorta büdcəsinin həcminə görə bu müəyyən edilməlidir. Nəzərə almaq lazımdır ki, burada həkimlərin, tibb işçilərinin gəlirləri nəzərə alınmalıdır. Bu, sadəcə olaraq, həkimlərin fədakarlığı hesabına həyata keçirilə bilməz. Burada maraqlar təmin edilməlidir. Dünyanın hər yerində hansı nisbət-həkimin, ümumiyyətlə, bütün tibb personalının maaşı, müalicə profilaktika müəssisələrində amortizasiya xərcləri, digər texniki xərclər və yanaşı olaraq da sərfiyyat materialları, onların nisbəti nəzərə alınmaqla hesablanmalıdır. Əvvəlcədən bunun iqtisadi tərəfləri həll edilməli, həmin iqtisadi imkanlar çərçivəsində daha vacib xidmət zərfləri önə çəkilməlidir. Proses yavaş-yavaş öz həllini tapmalıdır”.

Qeyd edək ki, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi (Agentlik) tərəfindən icbari tibbi sığorta çərçivəsində göstərilən tibbi xidmətlər barədə əhalinin məmnunluq səviyyəsinin öyrənilməsi məqsədilə sorğu keçirilib. Sorğu agentliyin sosial media hesabı üzərindən bir ay ərzində aparılıb. Onlayn sorğuda ümumilikdə 304 nəfər iştirak edib. Onlardan 53%-ni kişi, 47%-ni isə qadınlar təşkil edib. Onların 49%-i 25-34 yaş aralığındadır. Respondentlərdən icbari tibbi sığorta çərçivəsində tibbi xidmətlərdən istifadə edib-etməmələri barədə sual soruşulub. 72% sorğu iştirakçısı icbari tibbi sığortadan yararlandığını bildirib. Həmin şəxslərin 56%-i Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) tabeliyindəki dövlət tibb müəssisələrində və Səhiyyə Nazirliyinin tabeliyindəki elmi-tədqiqat institutlarında xidmət aldığını bildirib.

❑ **Afaq MİRAYİQ, “Yeni Müsavat”**



# Azərbaycanda həkimlərə resept qadağası

## Elektron reseptin tətbiqinə başlanılacaq

**Həkimlərin kommersiya məqsədli dərmanları reseptə yazması qadağan olunacaq. Milli Məclisin Səhiyyə komitəsinin iclasında “Dərman vasitələri haqqında” Qanuna dəyişiklik layihəsinin müzakirəsi zamanı səhiyyə nazirinin müavini Rasim İsmayılov bildirib.**

“Elektron reseptlə bir çox nöqsanlar aradan qalxacaq. Qeydiyyatsız dərman vasitəsinə resept yazılmayacaq. Hətta həkim istəsə belə, kommersiya məqsədli dərmanları reseptə yaza bilməyəcək”, - deyə nazir müavini qeyd edib.

“Dərman vasitələri haqqında” Qanuna edilməsi nəzərdə tutulan dəyişikliklərin istiqamətləri müəyyənləşib.

Bu barədə qanun layihəsini təqdim edən Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev bildirib.

“1.0.35-ci maddəyə əsasən dərman vasitələrinin dövriyyəsinə nəzarəti təmin etmək məqsədilə Səhiyyə Nazirliyi tərəfindən aparılan elektron təqib və izləmə (track and trace) sisteminin tətbiq edilməsini və bununla bağlı yeni hüquqi tənzimləməni nəzərdə tutur. Bu sistem istehsal və idxal olunan markalanmalı malların dövriyyəsinə, topdan və pərakəndə satışına nəzarəti həyata keçirən və bununla bağlı məlumatları qeydə alan informasiya ehtiyatı olacaqdır. Növbəti istiqamət üzrə dəyişiklik dərman vasitələrinə reseptlərin elektron formada yazılmasına imkan verən sistemin tətbiqini nəzərdə tutur ki, bu da "Dərman vasitələrinə reseptlərin yazılması" adlı yeni 12-1-ci maddədə təsbit edilir. Bütövlükdə reseptin yeni və geniş anlayışının verilməsi, elektron reseptin tətbiqi, dərman vasitələrinin reseptə yazılması qaydası layihədə qeyd edilən bir digər yenilikdir.

Elektron reseptin tətbiqi reseptdə dövlət qeydiyyatına alınmamış dərman vasitələrinin yazılması hallarının qarşısının alınması, reseptə bioloji fəallığa malik qida əlavələrinin yazılması hallarının qarşısının alınması və resept üzərində dövlət nəzarətinin gücləndirilməsi məqsədi müəyyən edilib. Reseptə yalnız dərman vasitəsinin təsiredici maddəsinin yazılması nəzərdə tutulur.

9.6-cı maddəyə görə, dövlət qeydiyyatında olmayan dərman vasitələrinin reseptə yazılması zərurəti yarandıqda, həmin resept Səhiyyə Nazirliyi tərəfindən yoxlanılıb təsdiq edildikdən sonra pasient və topdansatış əczaçılıq müəssisələri, aptek təşkilatları və ya müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan arasında müqaviləyə əsasən yalnız reseptdə yazılan miqdarda dərman vasitəsi ölkəyə gətirilə bilər. Həmin dərman vasitələrinin resept yazılan şəxs istisna olmaqla, ölkə ərazisində satışı qadağandır.

YENİ MÜSAVAT
N 107 (8243) 21 iyun 2023

# Kütləvi məzarlıqlar və beynəlxalq təşkilatların kor olan gözü...

## Çingiz Qənizadə: "Əsir və itkin düşmüş vətəndaşlarımızın taleyinə beynəlxalq ictimaiyyət hələ də biganədir"



**Ağdamın Sarıcalı kəndi ərazisində Ağdam avtomobil yolunun kənarında insan qalıqları aşkar olunub.**

Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun əməkdaşı, fiziki antropoloq Vüsal Həsənov "Trend"ə bildirib ki, məlumat əsasında ərazidə 50 kvadratmetr sahədə dərinləşdirmə işləri aparılıb.

"Mövcud yer səviyyəsindən təxminən 40-50 santımetr dərinlikdə üç fərqli nöqtədə insan qalıqları aşkar olundu. Bir nöqtədə ən azı iki, digər nöqtələrdə də hər birində bir nəfər olmaqla ən azı dörd insan qalığı aşkara çıxardıq. Tam olaraq dəqiq say, insan qalıqlarının sümüklərindəki travma və digər əlamətlər, burada aşkar olunan insanların cinsiyyəti ilə bağlı dəqiq məlumatlar kameral-laborator şəraitdə ekspertlər tərəfindən müəyyən ediləcək.

Hazırkı vəziyyətdən belə qənaətə gəlmək olur ki, burada dəfn əlamətləri yoxdur, insanlar öldürüldükdən sonra yol kənarına atılıb, anatomik ardıcıllıq tamamilə pozulub. İnsan qalıqları tamamilə fərqli hissələrdə yerləşir, natamamdır, bəzi hissələr isə aşkar olunmadı", - deyə o əlavə edib.

Qeyd edək ki, Ağdamın işğaldan azad olunan Sarıcalı kəndi ərazisində kütləvi məzarlıq aşkarlanıb. Meyitləri tapılan şəxslərin 1992-ci ildə ermənilər tərəfindən öldürülərək basdırılması ehtimal olunur. Məlumat üçün qeyd edək ki, bundan bir neçə gün əvvəl növbəti kütləvi məzarlıq Şuşa türməsinin ərazisində aşkar olunub. İlkin məlumata görə, qalıqların ən azı 4 nəfərə aid olduğu ehtimal edilir. Kütləvi məzarlığın Şuşa həbsxanası ərazisində aşkarlanması onu göstərir ki, qanunsuz olaraq həmin yerdə saxlanmış azərbaycanlılar dəhşətli işgəncələrə, qeyri-insani rəftara məruz qalıb.

Qarabağda erməni terrorçuları tərəfindən həm dinc əhalinin, həm də hərbi əsirlərin kütləvi şəkildə qətlə yetirilməsi danılmaz faktdır.

İşğaldan azad edilən torpaqlarımızda aparılan quruculuq işləri zamanı aşkarlanan kütləvi məzarlıqların sayının artması onu deməyə əsas verir ki, ermənilər azərbaycanlılara qarşı yüzlərlə soyqırımı həyata keçiriblər.

Aşkarlanan məzarlıqların axtarış tədbirləri həyata keçirilir. Minaların basdırılmasına görə hər yerdə qazıntı işləri aparmaq hələlik mümkün deyil. Lakin minalardan təmizlənmiş ərazilərdə qazıntılar nəticəsində belə məzarlıqlar aşkarlanır.

Kütləvi məzarlıqlar bir daha Azərbaycanın necə azğın düşmənlə üz-üzə qaldığını, Birinci Qarabağ müharibəsi zamanı itkin düşmüş, öldürülmüş hərbçilərə, mülki şəxslərə aid olduğu qeyd edilir. 44 günlük Vətən müharibəsindəki qələbədən sonra Prezident İlham Əliyevin tapşırığına əsasən, işğaldan azad edilmiş ərazilərdə Birinci Qarabağ müharibəsi zamanı itkin düşmüş vətəndaşların ehtimal edilən məzar yerlərinin müəyyən edilməsi istiqamətində Ermənistan hərbçiləri tərəfindən beynəlxalq humanitar hüquq normalarının necə kobud şəkildə pozulduğunu aydın göstərir. İnsanlıq əleyhinə törədilmiş bu cinayətlər erməni xislətini bir daha ortaya qoyur. Ancaq beynəlxalq təşkilatlar saxta soyqırım iddiası ilə dünyanı yalana inandırmış erməni cinayətlərini hələ də görməzdən gəlir.

**Bu barədə Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri Çingiz Qənizadə** "Yeni Müsavat"a bildirdi ki, Ağdamın Sarıcalı kəndi ərazisində tapılan kütləvi məzarlıqlar bir daha erməni faşizminin sübutudur. Ermənilər Azərbaycan ərazilərini işğal etdikləri dövrdə əsir və girov götürdükləri azərbaycanlılara, dinc mülki insanlara qarşı əsl faşist, əsl vandallıq nümayiş etdiriblər. Əsir və girovları işgəncə ilə qətlə yetiriblər, maşınlara bağlayıb parça-parça eləyiblər və kütləvi şəkildə harada gəldi xəndəklər qazıb basdırıblar: "Azərbaycanın işğal edilmiş bütün ərazilərində ermənilər bu cür cinayətləri həyata keçiriblər. Ona görə də hələ bundan sonra da kütləvi məzarlıqların aşkara çıxdığını çox görəcəyik. Əsir və itkin düşmüş Vətəndaşlarla iş üzrə Dövlət Komissiyasının üzvü olmuşam. Bu müddətdə də mən tam dəqiqliyi ilə öyrəndim ki, itkin hesab edilən 4 min azərbaycanlının böyük hissəsini ermənilər işgəncə ilə qətlə yetiriblər və kütləvi şəkildə basdırıblar. Kütləvi məzarlıqların yerini isə ermənilər bu günədək açıqlamır. İşğaldan azad etdiyimiz ərazilərimizdə aşkarlanan kütləvi məzarlıqlardan başqa, Ermənistan ərazisində də azərbaycanlıların kütləvi məzarlıqları var. Ermənistan beynəlxalq konvensiyaları pozaraq onların yerini açıqlamır. Bir insanın ölümünə görə bəzən dünya dövlətləri, beynəlxalq təşkilatlar hansısa dövlətlərə iradlar bildirirlər, hüquqi addımlar atırlar. Hazırda bizim 3890 nəfər əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşımızın taleyinə beynəlxalq ictimaiyyət təəssüf ki, hələ də biganədir. İkili standartlar mövcuddur. Beynəlxalq konvensiyalar və qanunlar bir sıra dünya dövlətləri və beynəlxalq təşkilatları üçün yalnız özlərinə sərf edəndə işə salınır. Özlərinə sərf etməyən məsələlərdə isə kağız parçası hesab edilir. Digər tərəfdən, ermənilərin, erməni lobbisinin dünyada uzun illərdir apardığı təbliğat, reallıqların təhrifi azərbaycanlıların kütləvi məzarlıqları ilə bağlı faktlara dünyanın susqun yanaşmasında rol oynayır. Daha bir səbəb isə xristian təəssübkeşliyi amilidir. Xristian erməniləri müsəlman türklərin kütləvi qətlində ittiham edib cəzalandırmaq istəmirlər. Hesab edirlər ki, bununla Türkiyənin, Azərbaycanın əlini gücləndirmiş olarlar. Bunu isə istəmirlər. Ona görə də həqiqətlərə göz yummaq yolunu tuturlar. Necə ki, 30 il ərzində Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalda saxlanmasına, talan edilməsinə göz yumurdular, Ermənistana buna görə heç bir təzyiq etmirdilər, indi də kütləvi məzarlıqlar məsələsinə - Ermənistanın aşkara çıxan bu cinayətlərinə göz yumurlar, reaksiya vermirlər".

**Ekspert qeyd etdi ki, Azərbaycan dövləti kütləvi məzarlıqlar məsələsi ilə bağlı hüquqi addımlar atır, təbliğat aparır, məsələni dünya birliyinin gündəminə çıxarmaq istiqamətində işlər görür**: "Ancaq çox təəssüf ki, Ermənistana bu məsələdə dünya birliyi tərəfindən gərəkən tələb və təzyiqlər edilmir. Buna baxmayaraq, ruhdan düşmək lazım deyil. Artıq zaman bizim xeyrimizə işləyir, erməni yalanlarına artıq dünya ictimaiyyəti inanmamağa başlayıb, haqq-ədalət gec-tez qalib gəlir və gələcək. Azərbaycan özünün beynəlxalq hüquqa söykənən tələblərinin yerinə yetirilməsi istiqamətində atdığı addımlarda istədiyi nəticəni əldə edəcək".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

# "Qarabağ partizanı" ölüm ayağındadır

## Məmməd Məmmədovun anasından ürək parçalayan sözlər



**Həbsdəki ömürlük məhbus, "Qarabağ partizanı" adı ilə daha çox tanınan Məmməd Məmmədov ölüm ayağındadır. 20 ildir ki, məhbəs həyatı yaşayan, hazırda Qobustan həbsxanasında saxlanılan M.Məmmədovun səhhətində ciddi problemlər yaranıb.**

Ailənin yeganə övladı olan, hər yerdən əli üzülən M.Məmmədov təkcə anası Təranə Məmmədovanın ümidinə qalıb. Biçarə ana ölüm ayağında olan, həyatla çarpışan övladı üçün Qobustan həbsxanasının qarşısında hər gün səhərdən axşama qədər dayanır, övladının xəstəxanaya köçürülməsi üçün çarpışır. Lakin onu həbsxanadan çıxarmağa nail ola bilmir. Çünki həbsxana rəhbərliyi heç kəsə məlum olmayan səbəbdən ömürlük məhbusun müvəqqəti olaraq, tibb mərkəzinə köçürülməsinə icazə vermir.

**Çarəsiz qalan ana "Yeni Müsavat"a üz tutub:** "Oğlum "Qarabağ partizanları" deyilən dəstənin içərisində ən kiçik yaşlısı olub. Həbs olunarkən 20 yaşı var idi. İndi 40 yaşındadır. Yaşadığı ömrün yarısını həbsxanada keçirib. Dəstənin başçısı 9 il iş alıb, mənim oğlum isə ömürlükdə yatır. Hazırda oğlum xəstədir. 3 ildir ki, müraciət etmədiyim yer yoxdur. Artıq oğlumu itirmək təhlükəsi ilə üz-üzə qalmışam. Məni məcbur etdilər ki, onlardan şikayətçi olum. Dəfələrlə Qobustan həbsxanasının rəhbərliyinə müraciət etmişəm, telefonla danışıqlar aparmışam, həbsxananın baş həkimi ilə dəfələrlə görüşüb danışmışam. Ədliyyə Nazirliyinin Baş Tibb İdarəsinə müraciət etmişəm. Rəis müavininin qəbulunda olmuşam. Ancaq verdiyim ərizələri qeydiyyata salmayıblar. Tibb idarəsində həbsxanaya baxan həkimlərlə görüşmüşəm. Hər ikisi deyir ki, hansısa yuxarı təbəqələrdən tapşırıq var, ona görə də biz onu yerindən tərpədə bilmərik. Son sözləri budur. Bilmirəm artıq nə edim. Oğlum ömürlük cəzalı cinayət törətməyib. Məmməd həbsdə olduğu müddət mənim üçün çox çətin keçir. Bu müddətdə yalnız dörd divara baxmışam. Övladsız yaşamaq ağırdır. Onun yaxşı yoldaşları var idi. Həmişə deyirdi ki, torpağa bağlıyam, mən də müharibəyə gedəcəyəm - vətəni qorumağa. Torpağı qorumaq üçün getdi və ömürlük cəza aldı. Ana olaraq əziyyətimi düşünün. Həbsxanaya gedib-gəlmək imkanlı ailə üçün belə çətindir. Evdə olanda rahat olursan. Cəza təkcə Məmmədə yox, mənə də verilib. İmkansız ailəyik. Bu zülmü Allah götürməz. Neçə ildir həbsxana yollarındayam. Yaşı keçir, evlənməlidir. İnsan kimi yaşamaq haqqı yoxmu? Fədakar xanım olsa, orada evləndirərəm".

Qobustan həbsxanasının rəhbərliyi ilə əlaqə saxlamaq cəhdlərimiz alınmadı. Qarşı tərəfin, yazıda adları keçən şəxslərin mövqeyini dərc etməyə hazırıq.

İstintaq materiallarına görə, "Qarabağ partizanları" xüsusi dəstə yaradıblar, silah əldə ediblər və döyüşmək üçün Qarabağa getmək istəyiblər, MTN isə onları həbs edib. Əməliyyatın keçirildiyi Xətai parkında atışma olub. Atışma zamanı bir nəfər ölüb, bir nəfər yaralanıb. Həmin şəxsləri tutublar.

Amma Məmməd Məmmədovun işinə ayrıca baxılıb. Çünki həmin qətldə onu günahlandırıblar. Sonradan dəstənin digər üzvlərinin üzərindən mütəşəkkil dəstə yaratmaq ittihamı götürülüb. Yalnız Məmməd Məmmədovun işində bu ittiham saxlanıb.

Maraqlı məqam odur ki, indiyə qədər həbs olunan dəstə üzvlərinin hamısı azadlığa buraxılıb. Yalnız gəncliyinin ən gözəl çağlarını həbsxanalara qurban verən Məmməd Məmmədovdan başqa...

Avropa İnsan Haqları Məhkəməsi M.Məmmədovun işinə baxarkən, qanun pozuntuları qeydə alıb. Ona görə də Avropa hüquq qurumu Ali Məhkəmədə bu işə yenidən və ədalətli baxılması barədə qərar qəbul edərək, həmin işi Azərbaycana qaytarıb. Lakin məhkəmənin qərarı M.Məmmədovun üzünü güldürməyib...

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 107 (8243) 21 iyun 2023

**Xəbər verdiyimiz kimi, Prezident İlham Əliyev iyunun 19-da Neft İxrac edən Ölkələr Təşkilatının (OPEC) baş katibi Haysam Əl-Qaysı qəbul edib. Görüşdə Azərbaycanla OPEC+ ölkələri arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi qeyd edilib. Eyni zamanda bu gün qlobal neft bazarında OPEC+ formatında fəaliyyətin roluna toxunulub, indiyədək bu bazarda sabitliyin əldə edilməsinin məhz bu formatda həyata keçirilən fəaliyyət nəticəsində mümkün olduğu xüsusi qeyd edilib.**

# Dünyada neftə yatırımlar azalır: nə baş verəcək?

## Dünyada neft kəşfiyyatı və hasilatına ən böyük investisiya yatırımı 2014-cü ildə - 755 milyard dollar olaraq qeydə alınıb




Söhbət zamanı bu gün "fossil" yanacaqlar sahəsində mövcud olan məsələlər müzakirə edilib, gələcəkdə bu sahəyə investisiyaların ayrılmasının vacibliyi bildirilib. Dünya iqtisadiyyatının artması nəticəsində ümumilikdə enerjiyə çoxalan tələbat nəzərə alınaraq, bu sahəyə son zamanlarda investisiyaların azaldılmasının müəyyən narahatlıq doğurduğu qeyd olunub.

Qeyd edək ki, son illərdə bərpa olunan enerji mənbələrinə marağın kəskin artması fonunda ənənəvi enerji mənbəyi olan neft istehsalına yatırımlar kəskin azalıb. Bu isə orta və uzunmüddətli dövrdə qlobal neft hasilatının sürətli azalmasına səbəb ola bilər. Artıq bir çox beynəlxalq təşkilatlar nefti əvəz edəcək bərpa olunan enerji mənbəyi tapılmadan bu məhsulun kəşfiyyatı və hasilatına sərmayələrin azaldılmasının yaradacağı problemlər barədə xəbərdarlıqlar səsləndirirlər. Dünyanın ən böyük neft hasilatçısı olan Səudiyyə Ərəbistanının milli neft şirkəti olan "Saudi Aramco"nun icraçı direktoru Amin Nassərin fikrincə, 2023-cü ildə neftə gündəlik tələbat 1,7 milyon barel artacaq. Lakin bu tələbatı qarşılamaq asan olmayacaq - çünki son illər neft hasilatı və ona bağlı geoloji kəşfiyyat işlərinə, həmçinin neft emalı və daşınmasına getdikcə daha az vəsait ayrılır. Nassərin sözlərinə görə, tələbatın artımında aviasiya sektorundakı postcovid canlanması mühüm rol oynayacaq.

Qeyd edək ki, dünyada neft kəşfiyyatı və hasilatına ən böyük investisiya yatırımı 2014-cü ildə - 755 milyard dollar olaraq qeydə alınıb. 2015-ci ildə belə yatırımlar 600 milyard dolların altına düşüb.

2016-cı ildə "Deloitte" auditor qrupu bəyan edib ki, yaxın onilliklərdə neftə olan tələbin artmasını qarşılamaq üçün növbəti 5 ildə geoloji kəşfiyyat və hasilata 3 trilyon dollar yatırım edilməlidir. Lakin neft qiymətlərindəki ucuzlaşma investisiyaların azalmasını şərtləndirdi və 2016-2019-cu illərdə neft hasilatı və kəşfiyyatına yatırımlar illik 450 milyard dollar ətrafında dəyişdi, 2020-ci ildə isə 307 milyard dollara düşdü. Beləliklə, beş ildə real investisiyaların həcmi "Deloitte"nin zəruri hesab etdiyi minimumdan 900 milyard dollar aşağı - 2,1 milyard dollar oldu.

"Energy Intelligence"nin hesablamalarına əsasən 2022-ci ildə neft hasilatı və kəşfiyyatına yatırımlar 427 milyard dollara yaxın olub. 2023-cü ildə bu göstəricinin 12 faiz artaraq 485 milyard dollara çatacağı gözlənilir. Bu, 2020-ci illə müqayisədə yüksək olsa da, 2014-cü illə müqayisədə çox aşağıdır.

OPEK-in hesablamalarına əsasən 2023-cü ildə Alyansa daxil olmayan ölkələrdə neft hasilatı və kəşfiyyatına yatırılan investisiyaların həcmi 2022-ci illə müqayisədə 10 faiz artmaqla 474 milyard dollara çatacaq. 2022-ci ildə bu investisiyalarda 20 faizlik artım qeydə alınıb və 431 milyard dollara çatıb. Bu il isə alyans belə investisiyaların artım sürətinin azalmasını gözləyir. OPEK-in hesabatında qeyd olunur ki, Norveç, Braziliya, ABŞ və Kanadada neft-qaz kəşfiyyatı və hasilatına çəkilən əsaslı xərclərin həcmi müvafiq olaraq 26 faiz, 15 faiz, 12 faiz və 8 faiz artacaq. Beləliklə, investisiyaların həcmi pandemiyadan əvvəlki həcmə çatacaq.

Hesabatda o da vurğulanır ki, 2022-ci il enerji bazarı üçün rekord gəlirlər ili kimi yadda qalıb. Lakin bu zaman sektora investisiyalar rekord gəlirlərin cüzi bir hissəsini təşkil edib. Belə ki, 2022-ci ilin yekununda ABŞ-ın "Exxon" şirkəti 55,7 milyard dollar, "Chevron" şirkəti 35,5 milyard dollar, "Shell" şirkəti 42,3 milyard dollar, "TotalEnergies" 36,2 milyard dollar gəlir əldə ediblər. Böyük Britaniyanın bp şirkəti isə Rusiyanın "Rosneft" şirkətindəki 19,75 faizlik payından imtina etdiyinə görə ili 2,5 milyard dollarlıq zərərlə başa vurub.

"Goldman Sachs"ın araşdırmasına əsasən, neft hasilatı və kəşfiyyatına yatırımların azalması 2025-ci ilədək gündəlik qlobal neft hasilatının 10 milyon barel azalmasına gətirib çıxaracaq. Bu həcmdən alınan enerjini alternativ mənbələrdən əldə etmək üçün hidrogen sənayesi və batereya istehsalına çox nəhəng investisiyaların yatırılması lazımdır. Beynəlxalq Enerji Agentliyinin hesablamalarına əsasən, yeni yataqların işlənməsinə başlanmazsa, həmçinin bərpaolunan enerji istehsalı nəzərdə tutulan sürətlə artarsa, ortamüddətli dövrdə qlobal gündəlik neft təklifi tələbatdan 20 milyon barel çox ola bilər. Lakin bu, ən ideal variant hesab olunur - nefti hər sahədə, xüsusilə də hava və dəniz nəqliyyatında əvəz edəcək bərpa olunan enerji mənbəyinin tapılması kimi.

**Rusiyanın "Rosneft" şirkətinin icraçı direktoru İqor Seçin hesab edir ki, dünyada neftə olan tələbat və ona uyğun olaraq qiymətlər artmağa davam edəcək:** "Beynəlxalq Enerji Agentliyi və OPEK-in proqnozlarına əsasən, 2023-cü ildə neftə olan gündəlik qlobal tələbat 2,4 milyon barel artmaqla yeni rekorda - 102 milyon barelə çatacaq. Uzunmüddətli perspektivdə neft istehlakı fiziki həcm baxımından 2045-ci ilədək 15 faiz - gündəlik 15 milyon barel artacaq. Beləliklə də neft təbii qazla birlikdə dünyanın ilkin enerjiyə olan tələbatının 53 faizini təmin edəcək".

**Çox maraqlıdır ki, Seçin qlobal neft tələbatının artımında Afrika ölkələrinin həlledici rol oynayacağı qənaətindədir. Onun fikrincə, Afrikanın neft istehlakında gözlənilən artım qlobal neft tələbatı proqnozlaşdırılarkən nəzərə alınmır:** "Halbuki BMT-nin proqnozlarına əsasən, 2050-ci ildə Afrika əhalisi 74 faiz artaraq 2,49 milyard nəfərə bərabər olacaq. Bu zaman digər regionlarda cəmi 10 faizlik əhali artımı qeydə alınacaq. Afrikada enerjiyə tələbatın isə 2050-ci ilədək 70-80 faiz artması gözlənilir. Yəni əhali artımı tempi enerjiyə olan tələbatla eyni səviyyədə olacaq. Afrikada enerji tələbatının artması qlobal bazarda neft tələbin artmasını şərtləndirəcək. Neft sektoruna, geoloji kəşfiyyat işlərinə investisiyaların azalması fonunda bu artım bazarda çatışmazlıq yaradacaq ki, bu da qiymət artımına səbəb olacaq".

İnvestisiyaların azalması ilk növbədə ABŞ-da neft hasilatının azalmasına gətirib çıxara bilər. Bu ölkənin hakimiyyəti bərpa olunan enerji mənbələrinə investisiyaları kəskin artırır, 2021-ci ildən böyük bankların hamısının neft sektoruna yatırımlardan imtina etməsi fonunda şist neft hasilatçıları hasilat gücünü artırmaq üçün sərmayə tapa bilmirlər. Buna görə də ortamüddətli dövrdə ABŞ-da hasilatın 10 faizədək azalması gözlənilir.

Hesablamalar göstərir ki, dünyanın 3 böyük neft hasilatçısından biri olan Rusiyada sektora investisiya problemi gözlənilmir. Bu ölkə hələ yaxın 10-15 il ərzində ən böyük neft hasilatçılarından biri rolunu saxlaya biləcək. Lakin Qərbin ağır sanksiyaları şəraitində ölkədə kəşfiyyat və hasilat işlərinin ciddi azalması təhlükəsi var. Belə ki, Rusiyada bu sahələr kəskin şəkildə Qərb texnologiyalarından asılıdır. Qərb isə belə texnologiyaların Rusiyaya satışını qadağan edib. Bu texnologiyaların yerli istehsal məhsulları ilə əvəz edilməsi yaxın onilliklərdə real görünmür. Bu isə nəinki yeni yataqların işlənməsi, bir neçə ildən sonra Rusiyanın istismar olunan yataqlarında hasilat tempinin saxlanmasını belə çətinləşdirəcək əsas amildir.

Qlobal neft hasilatında ən böyük paya malik Səudiyyə Ərəbistanı hazırda neft kəşfiyyatı və hasilatına ən böyük yatırım edən ölkədir. Yaxın 2 ildə bu ölkədə qeyd olunan sahələrə 50 milyard dollardan yuxarı investisiya yatırılması planlaşdırılır. Nəticədə 2025-ci ilədək Səudiyyə Ərəbistanında neft buruqlarının sayının 25 faizə qədər artacağı gözlənilir.

Neft hasilatçısı olan Azərbaycanda hasilat səviyyəsi ildən-ilə azalır. Bu, əsas hasilat mənbəyi olan "Azəri-Çıraq-Günəşli" yataqlar blokunun təbii qocalması ilə bağlıdır. Bu yatağın işlənməsinə dair 2017-ci ildə xarici şirkətlərlə imzalanmış yeni müqaviləyə əsasən 2050-ci ilədək yatağa 40 milyard dollar investisiya yatırılması nəzərdə tutulur. Lakin bu investisiyalar hasilatın yenidən artırılmasına deyil, azalma tempinin azaldılmasına gətirib çıxaracaq. Hasilatın azalmasına baxmayaraq, qlobal neft qiymətlərinin yüksək olması Azərbaycanın bu yanacaqdan əldə etdiyi gəlirlərin kəskin azalmasının qarşısını ala bilər.

Belə ki, neft təklifinin azalması fonunda hətta qlobal iqtisadi resessiya şəraitində belə neft bazarında qiymətlərin aşağı düşməyəcəyi gözlənilir. ABŞ Enerji İnformasiya İdarəsinin (EIA) proqnozuna əsasən Brent markalı neftin qiyməti 2030-cu ildə 79 dollar, 2040-cı ildə isə 84 dollar təşkil edəcək. Bu isə o deməkdir ki, Azərbaycan hələ 20 ilə yaxın dövrdə neft gəlirlərindən bəhrələnə biləcək...

**❑ Dünya SAKİT, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
Son səhifə
N 107 (8243) 21 iyun 2023

iyun

## Bunları bilirsinizmi?

* "Ok" dünyada ən populyar sözdür.
* Araxis - dinamitin tərkib hissələrindən biridir.
* Metro-Goldvin Mayer loqotipindəki şir çəkilişlərdən bir gün sonra öz təlimçisini öldürmüşdür.
* Ayda üç qolf topu var.
* Kirli qar təmiz qara nisbətən daha tez əriyir.
* Bir ofis masasında ayaq yolundan 400 dəfə artıq bakteriya var.
* Gözü açıq asqırmaq mümkün deyil.
* 4 yaşlı uşaq gün ərzində 400-ə yaxın sual verir.
* Alabamada kilsədə insanlarda gülüş doğuracaq formada bığ saxlamaq qadağandır.
* Gülmək üçün 40 əzələni, tapançanın tətiyinə isə basmaq üçün 4 əzələni işə salmaq lazımdır.
* Guinness gün ərzində 7 000 000 stəkan pivə satır.
* Milyonerlərin həyat yoldaşları adətən müəllimələr olur.
* Birinci sinfə təzəcə gedən bir uşaq artıq müxtəlif şirkətlərin 200-ə qədər loqotiplərini tanımağı bacarır.
* 1932-ci ildə o dərəcədə şaxta var idi ki, Niaqara şəlaləsi tamamilə donmuşdu.
* Qabıqsız ilbizin 4 burnu var.
* Albert Eynşteyn heç cür öz telefon nömrəsini yadda saxlaya bilmirdi.
* Dövlət məktəblərində işləyən müəllimlərin üçdə biri öz övladlarını özəl məktəblərə göndərir.
* Elektrikli stul stomatoloq tərəfindən icad olunub.
* Vaşinqton və Cefferson öz plantasiyalarında çətənə becərirdilər.



## Bu qan qrupu olan insanlar daha çox yaşayır

**Tədqiqatçılar hansı qan qrupu insanların digərlərindən daha çox yaşadığını müəyyən ediblər.**

Tədqiqatın nəticələrinə baxmayaraq, həkimlər insanın həyat tərzindən, vərdişlərindən və yaşayış mühitindən çox şeyin asılı olduğunu da xüsusi qeyd ediblər. Bir sıra tədqiqatlar zamanı alimlər müəyyən ediblər ki, I qan qruplarından birinə sahib olan insanlar çox vaxt daha uzun yaşayır və müxtəlif xəstəliklərə qarşı daha davamlı olurlar. Onlar nəinki daha az xəstələnirlər, həm də hər hansı bir xəstəliyə tutulsalar, daha tez sağalırlar.

Xüsusilə alimlər I(0) qrupunun ən güclü hesab edildiyini müəyyən ediblər. Onun nümayəndələrinin ürək-damar xəstəliklərindən, yaddaş xəstəliklərindən, hətta mədə və mədəaltı vəzi xərçənginin müəyyən növlərindən əziyyət çəkmə ehtimalı azdır. Məhz bu müqavimət 1-ci qan qrupu olan insanların daha uzun yaşamasına imkan verir.

Araşdırmalara görə, I qrupda qan laxtalanmasına səbəb olan daha az molekul var. Alimlərin fikrincə, bu, ürək və beyin üçün faydalıdır.

Həmçinin ürək-damar xəstəlikləri çox vaxt ruhi xəstəliklərə gətirib çıxarır. Buna görə də birinci qrup olan insanlar onlardan daha az əziyyət çəkirlər. Maraqlıdır ki, ikinci qan qrupu olan insanlar viral xəstəliklərə daha az meyllidirlər.

## Bu meyvə ürək xəstəliyi riskini azaldır

**Alimlər ürək xəstəliyi riskini azaldan meyvəni açıqlayıb.**

Araşdırmalara görə, yapon əzgili ürək xəstəliyi riskini azaldır. Az kaloriyə sahib olan yapon əzgili lif baxımından zəngindir. Bu xüsusiyyəti sayəsində xərçəng riskini azaldır. Güclü A vitamini sayəsində göz sağlamlığını da qoruyur. Bədənin ehtiyacı olan 50 faizi qarşılayır. Tərkibindəki yüksək antioksidant sayəsində gözdəki viruslara mane olur. Qan şəkərini azaldır. Bununla da diabet xəstəliyinə tutulma riskini azaldır. Yarpaqlarını və çəyirdəklərini qaynadaraq çayından istifadə edə bilərsiniz. Dəmir baxımından zəngindir. Dəmir qan hüceyrələrini artırır. Bu elementin çatışmazlığı üçün faydalı meyvədir. İmmunitet sistemini gücləndirir. Gündə 5 ədəd yeyə bilərsiniz.

# Ac qarına 1 stəkan içən 100 il yaşayacaq - yapon həkimlərin tövsiyəsi



**Sağlam həyat sürmək üçün pəhrizinizə diqqət etməlisiniz. Sağlam qidalanaraq, vitamin və minerallarla zəngin qidalardan istifadə etməklə immunitetinizi polad kimi gücləndirmək mümkündür. Qədim dövrlərdən biri sarımsaq təbii antibiotik sayılır. Həm bişmiş, həm də çiy halda istehlak edilən sarımsağı çay kimi də içmək olar. Sarımsaq çayı yuxarı tənəffüs yollarının infeksiyaları və toxunulmazlığı üçün çox güclü vasitədir.**

Sarımsağın orqanizmə faydaları demək olar ki, sonsuzdur. Müntəzəm olaraq istehlak edildikdə və yeməklərə əlavə edildikdə immuniteti polad kimi güclü edən sarımsaq xəstəliklərlə mübarizə aparır. Əsrlər boyu təbii antibiotik olduğu deyilən sarımsaq, demək olar ki, bir müalicə anbarıdır.

Mineral və vitamin baxımından qiymətli bitki olan gündə 3 diş sarımsaq:

B6 vitamini ehtiyacının 6%-i,

C vitamini ehtiyacının 5%-i,

Kalsium ehtiyacınızın 2%-i

Dəmir ehtiyacının 1%-ni ödəyir.

Bundan əlavə, sarımsağın tərkibində manqan, selen, mis, sink, fosfor, maqnezium, kalium, tiamin, riboflavin, omeqa 3 və omeqa 6 yağ turşuları var.

Sarımsaqdan istifadə edərək hazırlanan sarımsaqlı çay bütün bu vitamin və mineralları ehtiva edir.

### Sarımsaq çayı nə üçün faydalıdır?

Bəzi xroniki xəstəliklərdə və immunitetin zəiflədiyi xüsusi hallarda sarımsaqlı çaydan istifadə etmək tövsiyə olunur.

Yapon alimlərinin də tövsiyə etdiyi sarımsaq çayı zəngin vitamin və minerallar, antioksidan xüsusiyyətlər və hər bir dərd üçün müalicəvi xüsusiyyətlərə malikdir.

# Türkmənistanda 50 ildən çox yanan "Cəhənnəm qapıları" söndürüləcək



**Türkmənistanın Qaraqum səhrasında 50 ildən çoxdur yanmaqda olan Darvaza qaz kraterinin söndürülməsi layihəsi təsdiqlənmə mərhələsindədir.**

Bu barədə "Türkmənqaz" dövlət konserninin təbii qaz Elmi Tədqiqat İnstitutunun laboratoriyasının rəhbəri İrina Luryeva məlumat verib.

O bildirib ki, krater ölkənin turistik yerlərindən biridir. İnsanlar və turistlər tərəfindən "Cəhənnəm qapıları" kimi tanınan krater 2018-ci ildən rəsmi olaraq Parlayan Qaraqum adlanır.

Qeyd edək ki, Aşqabaddan 266 km aralıda yerləşən Qaraqum səhrasındakı qaz krateri 1971-ci ildə bu yerdəki kəşfiyyat mədəninin çökməsi nəticəsində yaranıb. Sonradan diametri 60 metr və dərinliyi 20 metr olan krater xalq tərəfindən "Cəhənnəm qapısı" ləqəbini alıb. Kraterdən çıxan alovların hündürlüyü 15 metrə çatır.



## Yupiterdə ildırım çaxmasının görüntüsü çəkilib

**Yupiterdə şimal qütbünün yaxınlığında burulğan və ildırım çaxmasının görüntüsü çəkilib.**

Fotoları paylaşan ABŞ Milli Aeronavtika və Kosmik Agentliyi (NASA) kadrların "Juno" kosmik gəmisindən 2020-ci ilin sonunda qeydə alındığını bildirib.

O da vurğulanır ki, Yupiterdə ildırım Yerdəki kimi tərkibində ammonyak-su məhlulu olan buludlarda baş verir və daha çox qütblərin yaxınlığında müşahidə olunur.

## Dünyanın ən məşhur şirkətlərindən biri araq istehsalına başlayır

**Avropanın "Coca-Cola Hellenic Bottling Company" (Coca-Cola HBC) şirkəti araq istehsalçısı "Finlandia"nı 220 milyon dollara alacaq. Bu barədə şirkətin press-relizində bildirilib. Tənzimləyicilər tərəfindən təsdiq olunarsa, müqavilə 2023-cü ilin ikinci yarısında bağlanacaq.**

"Finlandia" Mərkəzi və Şərqi Avropanın aparıcı araq brendidir. Məhsul 1970-ci ildən istehsal olunur və Amerika bazarına çıxan ilk Skandinaviya arağıdır. İtaliya, Nigeriya, Misir, eləcə də Mərkəzi və Şərqi Avropa ölkələrində içkilər istehsal edən "Coca-Cola HBC" 17 ildən çoxdur ki, brendin distribütorluğu ilə məşğuldur. İndi şirkət araq markasını birdəfəlik almaq qərarına gəlib.

## Səudiyyə Ərəbistanı Messiyə ölkədə tətil üçün milyonlarla dollar ödəyəcək



**Səudiyyə rəsmiləri argentinalı hücumçu Lionel Messinin ölkədəki tətil xərclərini ödəyəcək.**

Məlumata görə, Turizm Nazirliyi futbolçu ilə ölkənin dünyada imicinin yaxşılaşmasına kömək etməli olan müqavilə bağlayıb.

Sənədə əsasən, Messi ailəsi ilə birlikdə Səudiyyə Ərəbistanına gəlməli və yerli hakimiyyət orqanlarının təsdiq etdiyi sosial şəbəkələrdə paylaşım etməlidir.

Qeyd olunur ki, argentinalı ildə beş gün davam edən bir illik və ya üç gün davam edən iki illik ailə tətili üçün iki milyon dollar alacaq. Messi və onun ailəsi, eləcə də 20-yə qədər dostlarının yol və yaşayış xərcləri də Səudiyyə Ərəbistanı hökuməti tərəfindən ödəniləcək.

Səhifəni hazırladı: SELCAN

Redaktor: Nazim SABİROĞLU
e-mail adres: yenimusavat@mail.ru
Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)
Sifariş: 1608
Lisenziya N: B 114
SAYI: 1.500
"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.